QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 006 (6206) 13 yanvar 2021-ci il 2020-ci il. Qiyməti 40 qəpik "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi yaradılıb



Bax 2

## Professor Fırat Purtaş: "Şuşanın yeni görkəmlə türk dünyasının mədəniyyət paytaxtı seçilməsini gözləyirik"



*Böyük Zəfər münasibətilə Azərbaycan xalqını, azərbaycanlı qardaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycanın sevinci Türkiyənin, türk xalqının da sevincidir. Bu sevinci daha da artıran məsələlərdən biri də Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasıdır...*

Bax 6

## ICESCO-nun nümayəndə heyəti işğaldan azad edilmiş Füzuli rayonunda olub



*İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri çərçivəsində Füzuli rayonunda olub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, ICESCO-nun nümayəndə...*

Bax 12

## Mərkəzi Bank: Manatın ucuzlaşması ilə bağlı iddialar əsassızdır



*Son günlər manatın ucuzlaşması ilə bağlı mətbuatda və sosial şəbəkələrdə gedən əsassız xəbərlərin fonunda formalaşan gözlənti nağd valyuta bazarında müəyyən tələbi şərtləndirib ki, bu da valyuta hərracında tələbin nisbətən artmasına təsir edib. Lakin neftin qiymətinin ötən illə müqayisədə artdığını, "OPEC+"un son toplantısında...*

Bax 6

## Əsirlikdə olmuş Yəhya: "İynəni damarıma 40 dəfə salıb-çıxarırdılar"



*"Ermənilər məni əsir götürdükdən sonra işgəncə verir, yarama barmaq basır, döyürdülər. Məndən məlumat almaq istəyirdilər. Lakin mən hərbçi deyildim, döyüşlərə könüllü qatılmışdım və heç bir məlumatım yox idi". "İki sahil" xəbər verir ki, bunu azvision-a açıqlamasında 35 gün erməni əsirliyində...*

Bax 13

## "Kommersant": Moskvada Paşinyanın öhdəsindən gəlmək çətin olmadı



*Rusiya Azərbaycan və Ermənistanın rəhbərlərinin 11 yanvarda Moskvada keçirilən görüşü ilə bağlı "Kommersant" qəzetində maraqlı analitik yazı dərc olunub. Yazını təqdim edirik. Təxminən saat 11 radələrində Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Moskvaya gəldilər. Ermənistan Baş naziri və Azərbaycan Prezidenti Kremldə Rusiya prezidenti ilə əl sıxışdılar, ancaq bir-birlərini...*

Bax 15

### Medianın İnkişafı Agentliyinə direktor təyin olundu



Bax 4

### Mesrop Manukyan: "Ermənistan və erməni xalqı 38,4 milyard dollar ziyana düşdü"



Bax 14

### Paşinyanın arvadı və qızı Rusiya vətəndaşı olurlar?



Bax 7

# Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi yaradılıb

***Yanvarın 12-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayıb.***

AZƏRTAC xəbər verir ki, Fərmanda ötən əsrin 90-cı illərində Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra müasir medianın formalaşması və inkişafı üçün geniş imkanlar yarandığı qeyd olunur. Vurğulanır ki, həyata keçirilmiş köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılıb, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırılıb, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülüb.



Sənəddə bildirilir ki, ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçib, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Bununla yanaşı, cəmiyyət həyatının hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac var. Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranıb.

Fərmana əsasən, Azərbaycanda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Agentlik Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun hüquqi varisidir.

Agentliyin nizamnamə fondu 285405 manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 üzvdən ibarət Müşahidə Şurası, cari rəhbərliyi isə Prezidentin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir.

Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Agentliyin inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini həll etsin.

# YAP-ın MM-də yaradılmış təşkilatının İdarə Heyətinə yeni üzvlər seçilib

***Yanvarın 11-də Milli Məclisdə Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayonu üzrə 2 saylı ilk ərazi təşkilatının İdarə Heyətinin videoformatda geniş iclası keçirilib. SİA xəbər verir ki, tədbir iştirakçılarını salamlayan Milli Məclisin Sədri Sahibə Qafarova iclasın işinə uğurlar arzulayıb, yeni - 2021-ci ildə qarşıda duran vəzifələrdən danışıb. Spiker öncə yanvarın 6-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə videoformatda keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirəyə toxunub. Bildirib ki, adı çəkilən tədbirdə ötən ilin yekunlarını çox geniş və konseptual şəkildə təhlil edən dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə görüləcək quruculuq işləri və Ermənistan rəhbərliyinin təxribatçı davranışları ilə bağlı çox dəqiq mesajlar verib.***

Sədr vurğulayıb ki, Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, 2020-ci ilin ən əsas hadisəsi və ən əsas nəticəsi Vətən müharibəsində əldə olunmuş tarixi Zəfərdir, torpaqlarımızın işğaldan azad olunmasıdır. Sahibə Qafarova əminliklə bildirib ki, Vətən müharibəsində əldə olunmuş Zəfər nəinki 2020-ci ilin ən yaddaqalan hadisəsidir, eyni zamanda, tariximizə parlaq hərflərlə yazılmış, milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq möhtəşəm bir qələbədir. Bundan sonra yeni bir mərhələnin - quruculuq dövrünün başlandığını qeyd edən xanım Spiker deyib ki, bu dövrdə görüləcək tədbirlər, qarşıda duran vəzifələr müşavirədə cənab Prezident tərəfindən aydın şəkildə ifadə edildi və əminəm ki, bu vəzifələrin yerinə yetirilməsi Azərbaycanın uğurla, inamla inkişafına töhfə verəcək.

YAP-ın Səbail rayonu üzrə Milli Məclisdə yaradılmış 2 saylı ilk ərazi təşkilatının iclasında 2020-ci ildə ölkəmizdə ilk dəfə olaraq növbədənkənar parlament seçkiləri keçirildiyini xatırladan spiker bildirib ki, VI çağırış Milli Məclisin martın 10-da keçirilən ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqində irəli sürülən tövsiyələr Milli Məclisin fəaliyyətinin əsas istiqamətlərini təşkil edib. Ötən dövrdə Azərbaycan Prezidentinin uzaqgörən daxili və xarici siyasətini parlament səviyyəsində dəstəkləmək üçün Milli Məclisdə zəruri işlər həyata keçirilib. O cümlədən, Vətən müharibəsində Azərbaycan parlament diplomatiyasının bütün imkanları ölkəmizin haqq işi barədə dünya ictimaiyyətini məlumatlandırmağa, Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətdiyi təxribatların beynəlxalq auditoriyaya çatdırılmasına səfərbər olunub.



İclasda qeyd edilib ki, ötən 2020-ci ildə VI çağırış Milli Məclisin ikisi növbədənkənar olmaqla dörd sessiyası keçirilib. Parlamentin fəaliyyətinin səmərəliliyinin daha da artırılması, müasir tələblər çərçivəsində həyata keçirilməsi üçün müxtəlif addımlar atılıb. Azərbaycanın əldə etdiyi uğurlarda Yeni Azərbaycan Partiyasının da böyük rolu olduğunu vurğulayan parlamentin sədri bildirib ki, bu gün YAP-ın ideyaları, fəaliyyəti xalqımız tərəfindən dəstəklənir. Hazırda 760 mindən artıq üzvünün olması YAP-ın potensialını açıq şəkildə nümayiş etdirir.



Sədr öz çıxışında 1992-ci il noyabr ayının 21-də Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda təsis edilən Yeni Azərbaycan Partiyasının ötən 28 ildə şərəfli inkişaf yolu keçdiyini vurğulayıb. O dövrün gərgin ictimai-siyasi hadisələri fonunda YAP-ın yaranması-nı Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi kimi dəyərləndirib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP bu gün Azərbaycanın aparıcı siyasi qüvvəsidir və Cənubi Qafqazın ən böyük partiyasıdır.

Yeni Azərbaycan Partiyasının cəmiyyətin bütün təbəqələrindən olan insanlar, həmçinin fəal qadınlar üçün geniş imkanlar yaratdığını söyləyən Sahibə Qafarova Azərbaycanın Birinci vitse-prezidenti, YAP-ın Sədr müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin bütövlükdə Azərbaycan qadınları üçün nümunəyə və həyat məktəbinə çevrildiyini qeyd edib. Həmçinin Azərbaycan gənclərinin öz siyasi gələcəklərini məhz YAP-a bağladıqlarını deyib. Vətən müharibəsində YAP üzvü olan gənclərin də torpaqlarımızın azadlığı uğrunda böyük qəhrəmanlıqlar və şücaət göstərdiyini qürurla qeyd edib. Çıxışının yekununda Milli Məclisin Sədri ilk partiya təşkilatının İdarə Heyətinə seçiləcək üzvlərə qarşıda duran vəzifələrin icrasında uğurlar arzulayıb.

Sonra iclasda YAP Səbail rayonu üzrə Azərbaycan Respublikası Milli Məclisinin 2 saylı ilk ərazi təşkilatının (İƏT) fəaliyyətinə dair hesabat dinlənilib. Hesabatı slaydlar formatında təqdim edən ilk partiya təşkilatının sədr əvəzi, Milli Məclis Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyev statistik icmal, təşkilatda təmsil olunan millət vəkillərinin, qadınların və gənclərin say nisbəti, onların fəallıq əmsalı, Milli Məclisin struktur bölmələri üzrə İƏT üzvlərinin faiz indikatoru, habelə islahatlar çərçivəsində İƏT-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər paketi barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, təşkilat öz fəaliyyətini əsasən YAP-ın Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin dövlət və partiya tədbirlərindəki nitqlərində səsləndirdiyi müddəaların, habelə partiyanın Proqram və Nizamnaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində qurub.

İclasda YAP-ın təşkilat şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Hüseynov çıxış edərək əvvəlcə altıncı çağırış Milli Məclisin fəaliyyətində tətbiq olunan yeniliklərdən danışıb, həyata keçirilən islahatları yüksək qiymətləndirib. O, həmçinin təqdim olunan hesabatın və ilk partiya təşkilatının fəaliyyətinin qənaətbəxş olduğunu bildirib. YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev çıxışında bildirib ki, ilk dəfədir bu formatda hesabat-seçki iclası keçirilir. O, da ilk partiya təşkilatının ötən dövrdəki fəaliyyətinin uğurlu olduğunu bildirib.

İlk partiya təşkilatının üzvü, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov da çıxışında son dövrlər Milli Məclisdə aparılan islahatların uğurlu nəticələrini qeyd edib. O, həmçinin YAP-ın yaranması, keçdiyi inkişaf yolu haqqında geniş məlumat verərək qeyd edib ki, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək yaradılan Yeni Azərbaycan Partiyası ötən 28 ildə çox böyük inkişaf yolu keçərək Azərbaycan xalqına və dövlətçiliyinə ləyaqətlə xidmət edib.

Milli Məclisin deputatı Nizami Səfərov də ilk təşkilatın fəaliyyəti haqqında müsbət fikirlərini diqqətə çatdırıb. Müzakirələr başa çatdıqdan sonra hesabat yekdilliklə qənaətbəxş sayılıb. Sonra gündəlikdəki ikinci məsələyə baxılıb, təşkilatın İdarə Heyətinin yeni tərkibi seçilib. Adil Vəliyev YAP Səbail rayonu üzrə Azərbaycan Respublikası Milli Məclisinin 2 saylı ilk ərazi təşkilatı İdarə Heyətinin sədri seçilib. İclasda həmçinin sədr müavinləri və İdarə Heyətinin yeni tərkibi də müəyyənləşib.

# Prezidentə yazırlar: Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik

***Rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.***



**"Xalq-Ordu-Prezident vəhdəti dünyaya sübut etdi ki, Azərbaycan xalqı Sizin rəhbərliyinizlə hər şeyə qadirdir"**

Almaniya Federativ Respublikasının Berlin şəhərindən Zaur Spivak yazır:

*"Cənab Prezident, Müzəffər Ali Baş Komandan!*

Sizin Azərbaycan naminə gördüyünüz bütün işlər xalqımız tərəfindən dəstəklənir. Qələbə ilə başa çatan 44 günlük müharibədə Xalq-Ordu-Prezident vəhdəti dünyaya sübut etdi ki, Azərbaycan xalqı Sizin rəhbərliyinizlə hər şeyə qadirdir. Həmin günlərdə biz- Vətəndən kənarda yaşayan azərbaycanlılar - Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəklədiyi Azərbaycanlıların Koordinasiya Şuralarında birləşən diaspor təşkilatları Vətənin bu məsuliyyətli günlərində üzərimizə düşən vəzifəni dərk edərək Azərbaycanın haqlı mübarizəsini, öz torpaqlarını işğaldan azad etmək haqqının olduğunu yaşadığımız ölkələrin, şəhərlərin müxtəlif orqanlarına çatdırmağa səy göstərdik, erməni təxribatlarına bütün səviyyələrdə layiqli cavablar verdik. Azərbaycan diasporu daim Sizin qayğı və diqqətinizi hiss edir. Bu il "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı və təşəkkürnamə ilə təltif olunan soydaşlarımızın adları içərisində mənim də adımın olmasından qürur və fərəh hissi keçirdim. Bu, Sizin və dövlətimiz tərəfindən mənim fəaliyyətimə verilən yüksək qiymətdir.

Cənab Prezident! Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, daim Vətənimizin yanında olaraq, ölkəmizin dünyada daha yaxşı təbliği və beynəlxalq aləmdə milli maraqlarımızın qorunması üçün əlimdən gələni edəcəyəm".

**"Rəhbərliyiniz altında müzəffər Azərbaycan Ordusunun uğuru bizi çox sevindirdi"**

Türkiyənin İstanbul şəhərindən Cavid Çağlar:

"Hörmətli cənab Prezident.

Sizi Ermənistanın işğalına qarşı mübarizədə qazandığınız Qələbə münasibətilə təbrik edir və alqışlayıram.

Rəhbərliyiniz altında müzəffər Azərbaycan Ordusunun uğuru bizi çox sevindirdi. Atanızın yaxın dostu olaraq Sizi və Azərbaycan xalqını təbrik edir, yeni ilinizin uğurlu olmasını arzu edirəm".

**"Mən fəxr edirəm ki, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşıyam"**

Tərtər sakini Xədicə Məmmədəliyeva yazır:

"Hörmətli cənab Prezident.

Xalqımıza yaşatdığınız tarixi Zəfər üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk. Bu 30 ildə bizlərə- məcburi köçkünlərə böyük diqqət və qayğı göstərmisiniz. Mən fəxr edirəm ki, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşıyam. Sizə uzun ömür cansağlığı arzulayıram".

**"Siz xalqımızın haqq işi uğrunda əsl fədakarlıq nümunəsi ortaya qoyaraq tarixi ədaləti bərpa etdiniz"**

Bakı şəhərindən Baba Əliyev:

"Möhtərəm cənab Prezident!

Hər bir azərbaycanlının əbədi qürur duyacağı Müzəffər Ali Baş Komandan!

Başa vurduğumuz 2020-ci ildə istər çoxşaxəli islahatlar və pandemiya ilə mübarizədə öncül rəhbər, istərsə də müzəffər lider və Azərbaycan xalqının amalını gerçəkləşdirən şəxsiyyət kimi könülləri yenidən fəth etdiniz. 44 gün davam edən və işğal altındakı yurd yerlərimizin şanlı ordumuz tərəfindən azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Siz xalqımızın haqq işi uğrunda əsl fədakarlıq nümunəsi ortaya qoyaraq tarixi ədaləti bərpa etdiniz. Sizin "Qarabağ Azərbaycandır!" ifadəniz bu gün bütün dünya azərbaycanlıları üçün milli qürur, fəxarət, birlik və həmrəylik göstəricisidir. Bu qəhrəman xalqa, bu müqəddəs Vətənə sonsuz sevginiz ətrafında əldə edilmiş əvəzsiz birlik və həmrəyliyi də heç vaxt və heç nə sarsıda bilməz. Bu birlik və həmrəyliyimizin, əzəli və əbədi torpaqlarımızın azad olunması sevinci ilə Sizi, qürurunu hər gün yaşadığımız və yaşayacağımız Zəfər Günü münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı və uzun ömür, müstəqil Azərbaycanımızın daima inkişafı naminə yeni-yeni uğurlar arzulayıram.

**Yaşasın Azərbaycan, yaşasın Xalq-Prezident həmrəyliyi!**

Qarabağ Azərbaycandır!".

*"Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz və uzaqgörən siyasətiniz nəticəsində biz Qələbənin sevincini daddıq"*

Füzuli sakini Elmir Kazımov yazır:

"Müzəffər Ali Baş Komandan,

44 günlük Vətən müharibəsində qazandığınız parlaq Qələbə münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Doğma kəndimiz, orada keçirdiyim uşaqlıq illərinin xatirələri 28 ildə bir an da olsa mənim yadımdan çıxmadı. Bu illər ərzində Qarabağımıza, doğma yurd-yuvamıza qayıtmaq arzusu ilə yaşamışıq. Nəhayət ki həmin gün gəlib çatdı.

Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz və uzaqgörən siyasətiniz nəticəsində biz Qələbənin sevincini daddıq. Bu gün biz öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalqıq.

Hər bir qarabağlı kimi mən də Qarabağımıza, Yuxarı Yağlıvənd kəndinə qayıdacağım günü səbirsizliklə gözləyirəm.

Cənab Prezident, icazənizlə Sizi və ailənizi babam Seyid Musa Ağanın ocağına dəvət edirəm. Çünki bizlərə bu sevinci yaşadan, dədə-baba ocaqlarımıza qaytaran məhz Sizsiniz. Buna görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Sizə ilk növbədə cansağlığı, tükənməz həyat eşqi, bol-bol uğurlar arzu edirəm.

Hakimiyyətə gəldiyiniz ilk gündən çiyinlərinizə necə mürəkkəb və məsuliyyətli, eyni zamanda şərəfli missiyanın düşdüyünü anlamış, bu yolda yorulmadan, əzmlə addımlamısınız. Şükürlər olsun ki, bu gün də çəkdiyiniz əziyyətin bəhrəsini gördünüz. Bu gün ərazi bütövlüyünü bərpa etmiş qalib sərkərdə, Müzəffər Ali Baş Komandansınız.

Sizin kimi bir lideri olduğu üçün Azərbaycan xalqı çox xoşbəxtdir. Sizə ancaq Qələbə yaraşır.

**Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"**

*"Siz Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqı üçün misli görünməmiş qəhrəmanlıq səhifəsi yazdınız"*

Ağcabədi Səlahəddin Aslanov:

"Müzəffər Ali Baş Komandan!

Sizi yeni tarix yazmağınız, doğma Qarabağ torpaqlarını almağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm. Siz həqiqətən Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqı üçün misli görünməmiş bir qəhrəmanlıq səhifəsi yazdınız! Siz bunu dünyanı mat qoyan müdrik və uzaqgörən siyasətinizlə bacardınız. Azərbaycan dövlətinin və xalqının gücünü və mərhəmətini bütün dünyaya göstərdiniz.

Sizin xarici ölkə jurnalistlərinə verdiyiniz müsahibələri, xüsusilə dövlətimizə qarşı qərəzli münasibət sərgiləyən mətbuat nümayəndələri ilə dialoqlarınızı, onlara verdiyiniz kəskin və tutarlı cavablarınızı, Azərbaycanın haqlı mövqeyini bütün dünyaya çatdırmağınızı böyük qürur və iftixar hissi ilə izləyirdik.

XX əsrin qəhrəmanı ulu öndərimiz Heydər Əliyevdir, XXI əsrin qəhrəmanı isə Sizsiniz, cənab Ali Baş Komandan!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

**"Siz bu şanlı Qələbəyə imza atmaqla atanızın əbədiyaşar ideyalarına sadiqliyinizi nümayiş etdirdiniz"**

Oğuz rayonundan Murad Əliyev yazır:

"Hörmətli cənab Prezident,

Sizi və müzəffər Azərbaycan Ordusunu şəxsən öz adımdan və yaşadığım Calut sakinləri adından möhtəşəm, şanlı Qələbə münasibətilə təbrik edirəm, minnətdarlığımı bildirirəm.

Siz bu şanlı Qələbəyə imza atmaqla, atanızın vəsiyyətini yerinə yetirməklə onun ruhunu şad etdiniz, onun əbədiyaşar ideyalarına sadiqliyinizi nümayiş etdirdiniz. Bizə isə qalib ölkənin qalib vətəndaşı sevincini yaşatdınız.

Ulu Tanrı Sizi, Mehriban xanım Əliyevanı və bütün ailə üzvlərinizi qorusun. Sizləri bu ölkənin, bu xalqın başı üzərindən əskik etməsin. Sizə qalib Azərbaycanın xoşbəxt gələcəyi naminə yeni zəfərlər arzulayıram".

**"Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik"**

Mingəçevir şəhərindən Mütəllib Əliyev yazır:

"Əziz və hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

İkinci Qarabağ müharibəsinin iştirakçısı, Suqovuşan və Talışkənd döyüşlərinin iştirakçısı kimi Sizə dərin təşəkkürümü bildirirəm. Siz tarixdə əbədi iz qoydunuz. Sizin böyük siyasətçi və lider olduğunuzu bütün dünya bir daha gördü. Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik. Biz fəxr edirik ki, Azərbaycanlıyıq!

Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz, Ali Baş Komandanımız var.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Ali Baş Komandan!".

"Bu günləri bizə yaşatdığınız üçün Sizə təşəkkür edirik"

Naftalan sakini Davud Məmmədov:

"Müzəffər Ali Baş Komandan,

Sizə təhsil aldığım Səməd Vurğun adına Naftalan şəhər tam orta məktəbin şagirdləri və şəxsən öz adımdan dərin minnətdarlığımı bildirirəm. Siz düşmən üzərində böyük zəfər çalmaqla və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə bütün dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Hazırda biz dünyanın ən xoşbəxt övladlarıyıq. Bu günləri bizə yaşatdığınız üçün Sizə təşəkkür edirik. Bizim Prezidentimiz, bizim rəhbərimiz, Uca Allah Sizi qorusun!".

"Siz fəxr etdiyimiz Xalq Qəhrəmanısınız"

Göyçay sakini Əli Zayidov yazır:

*"Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan,*

Vətən döyünən ürəyimiz, məsləyimiz, öz yurdumuza hakimliyimiz, üçrəngli bayrağımız qürurumuz, and yerimiz, Siz isə fəxr etdiyimiz Xalq Qəhrəmanısınız. Sizə ailə üzvlərim və şəxsən öz adımdan azad, güclü Azərbaycanın vətəndaşı olduğuma görə təşəkkür edir, Sizin yürütdüyünüz siyasəti dəstəkləyirəm. Allah daim Sizi qorusun! Amin"

**"Sizin müdrik və uzaqgörən siyasətinizin nəticəsidir ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olundu"**

Bakı şəhərindən Ramilə Cəfərli:

"Hörmətli cənab Prezident,

Tükənməz səbriniz və dəmir iradəniz sayəsində Siz başda olmaqla Azərbaycan Ordusu iki əsr sonra şanlı tarix yazdı. Sizin müdrik və uzaqgörən siyasətinizin nəticəsidir ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, dövlətimiz və xalqımız həm beynəlxalq arenada, həm də döyüş meydanında alnıaçıq, üzüağ olaraq qalibiyyət qazandı. Buna görə, cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Allah həmişə yolunuzu açıq etsin! Allah Sizi xalqımıza çox görməsin!".

**"Sizin ölkəmizin bütün sahələrində apardığınız uğurlu siyasətin nəticələri öz bəhrəsini verməkdə davam edir"**

Şəki şəhərindən Ramazan Salamov yazır:

"Çox hörmətli cənab Prezident,

Ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız böyük mübarizənizi tarixi zəfərlə başa vurmağınız münasibəti ilə Sizi ailə üzvlərim və şəxsən öz adımdan təbrik edirəm. Torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş əsgər və zabitlərimizə Allahdan rəhmət diləyir, yaralanmış qazilərimizə isə tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayıram.

*Ardı Səh. 4*

# Prezidentə yazırlar: Biz Sizin ətrafınızda dəmir yumruq kimi birləşmişik

**Əvvəli Səh. 3**

Sizin ölkəmizin bütün sahələrində apardığınız uğurlu siyasətin nəticələri öz bəhrəsini verməkdə davam edir. Vətəndaşlarımıza göstərdiyiniz qayğı xalqımızın yaddaşına, hafizəsinə birdəfəlik daxil olmuş və bu xeyirxah əməlləriniz tarix boyu ürəklərdə yaşayacaq. Xüsusilə də təhsilə, səhiyyəyə, sosial sahəyə və digər sahələrə diqqət sözün əsl mənasında təqdirə layiqdir.

Cənab Prezident, övladım Xəyalə Salamova Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsində ödənişli əsaslarla təhsil alır. O, Azərbaycan Respublikası Gənclər Fondunda keçirilən müsabiqədə iştirak etmiş və qalib olmuşdur. Keçirilən müsabiqədə qalib olduğu üçün bu ilki təhsil haqqı Gənclər Fondu tərəfindən ödənilmişdir.

Bu diqqət həm ailəmizə sevinc bəxş etmiş, həm də qızımı daha yaxşı oxumağa həvəsləndirmişdir. Bu diqqət və qayğıya görə Sizə öz minnətdarlığımızı bildiririk".

**"İlham Əliyev əsl Liderdir!"**

Sumqayıt şəhərindən Natəvan Ağayeva yazır: "Əziz və hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Tarix Sizi millətin şan-şöhrət rəmzi kimi yetişdirib. İlham Əliyev mötəbər məclislərdə xalqımızın ləyaqətli elçisidir. Onun daşıdığı titulların hər birinə nəzər salsaq iftixarla deyə bilərik: İlham Əliyev əsl Liderdir! Qarabağ probleminin həlli yolunda biz ondan çox şey gözləyirdik və inamlarımız liderimizin sayəsində gerçək oldu.

Ali Baş Komandan, möhtərəm cənab Prezident, Sizə işğal altındakı torpaqlarımızı azad etdiyinizə, qaçqın və məcburi köçkünlərimizin öz yurd-yuvalarına, doğma ocaqlarına qayıtmasında qazandığınız uğura görə, Qələbəmizə görə təşəkkür edirəm.

Mən bir Şurnuxlu kimi Sizə çox sağ olun deyirəm, mənim ata-baba torpağımı yağı düşməndən azad etdiyiniz üçün minnətdarlığımı bildirirəm.

Müdrik bir atalar sözü var: "Ataların yolu oğulların yoludur". Bu atalar sözü Sizin haqqınızda deyilib. Siz Ulu Öndərimizin davamçısısınız. Atanıza verdiyiniz sözü tutdunuz. Uğurlarınız davamlı olsun! Biz bilirik ki, Siz işğaldan azad olunmuş torpaqlarımızı cənnətə çevirəcəksiniz.

Bir daha Sizə təşəkkür edirəm".

**"Sizin göstərişiniz əsasında qazilərə qayğı, maddi və mənəvi dəstək olunmasının canlı şahidiyəm"**

Ağcabədi rayon sakini Teymur Heydərov yazır: "Müzəffər Ali Baş Komandan!

27 sentyabr 2020-ci il tarixində başlamış, 44 gün ərzində davam etmiş Vətən müharibəsində erməni faşistlərini dəmir yumruğunuzla məhv etdiniz. Bu qələbə ilə Siz Azərbaycan tarixində görünməmiş bir zəfər qazandınız. Sizə ailə üzvlərim və şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Sizin göstərişiniz əsasında qazilərə qayğı, maddi və mənəvi dəstək olunmasının canlı şahidiyəm. Çünki mənim oğlum, qazi olan mayor Heydərov Elşad Teymur oğluna da yüksək səviyyədə diqqət və qayğı göstərilir. Buna görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. Övladım Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə sağ ayağını dizdən yuxarı itirmişdir. Vətən sağ olsun! Mən fəxr edirəm ki, oğlum torpaqlarımızın azad olunması uğrunda mübarizədə iştirak etmişdir.

Sizə uzun ömür və möhkəm cansağlığı arzulayıram. Allah Sizi xalqımızın başının üstündən əskik etməsin!".

**"Fəxr edirəm ki, bizim bu cür güclü və qəhrəman, torpağını və xalqını sevən Prezidentimiz var"**

Mingəçevir şəhər sakini Ayə Tağıyeva yazır:

"Müzəffər Ali Baş Komandanımız,

Mən gözəl nur şəhəri olan Mingəçevir şəhərində anadan olmuşam, hazırda bu şəhərdə yaşayıram. 10-cu sinif şagirdiyəm.

Mən Sizinlə qürur duyuram, fəxr edirəm ki, bizim bu cür güclü və qəhrəman, torpağını və xalqını sevən Prezidentimiz var. Arzu edirəm ki, heç bir zaman qocalmayasınız, həmişə belə cavan və güclü olasınız. Sizə olan ürək sözlərim çoxdur, nə qədər gözəl sözlər yazsam belə, Sizin üçün az olar.

Mən televizor vasitəsilə Sizi əsgərlərimizlə görüşərkən gördüm. Mənim də arzumdur ki, Sizi canlı olaraq görüm, Sizi bir baba kimi qucaqlayım. Mən Sizi çox sevirəm, Sizi görən kimi sevinirəm. Həyatda ən böyük arzum Sizinlə görüşməkdir. Sizin gözəl ürəyiniz var, Uca Rəbbim ürəyinizə görə versin! İnşallah!

Müharibə vaxtı çox qorxu, həyəcan, stress keçirsək də, Mingəçevirə atılan raketlərin qorxunc səsləri biz uşaqları qorxutsa da, nəhayət ki, bütün bunların sonu Sizin kimi uzaqgörən, müdrik rəhbərimiz və qəhrəman əsgərlərimiz sayəsində sevinclə bitdi. Sizə və əsgərlərimizə sonsuz təşəkkürlərimi bildirirəm. Şəhid olan qardaşlarımın ruhu qarşısında baş əyirəm, onların ailələrinə səbir diləyirəm. Allah bütün qazilərimizə də şəfa versin!

Bundan belə hər bayramda bizlər şəhid olan qardaşlarımızın ailələrinə baş çəkməli, qazilərimizi ziyarət etməliyik. Əgər bizlər 2021-ci ilə sağ-salamat qalmışıqsa, Sizin və əbədi səssizliyə qovuşanlar sayəsində, Vətən üçün canından keçənlər sayəsində, qazilərimiz sayəsində qalmışıq. Bizim gələcəyimiz olsun deyə, öz gələcəyindən keçənlərdir şəhidlər! Biz gülək deyə, öz ailələrini gözüyaşlı qoyanlardır şəhidlər! Biz torpağımızda rahat gəzək deyə, qanını torpağa tökənlərdir şəhidlər! Üçrəngli bayrağımız zirvələrdə dalğalansın deyə, o bayrağa bürünüb gözünü əbədi yumanlardır şəhidlər!

Şəhidlik böyük zirvədir. Hər adama nəsib olmur. Şəhidlərimizi heç vaxt unutmayacağam. Bu il şəhidlərin ilidir. Öpürəm bütün şəhid analarının əllərindən. Sizə isə, cənab Prezident, sonsuz təşəkkürlər! Sizi çox sevirəm. Yaxşı ki varsınız".

**"44 günlük Vətən müharibəsində əldə etdiyiniz Qələbə müvəffəqiyyəti**

Sizin 17 illik gərgin fəaliyyətinizin məntiqi yekunudur"

*Bakı şəhər sakini Elşad Hüseynov:*

"Hörmətli Prezident! Müzəffər Ali Baş Komandan!

44 günlük Vətən müharibəsində əldə etdiyiniz Qələbə müvəffəqiyyəti Sizin 17 illik gərgin fəaliyyətinizin məntiqi yekunudur. Bu, Azərbaycan kimi gənc bir ölkə və onun gənc ordusu üçün həqiqətən misilsiz uğur, inanılmaz nailiyyətdir. Sizin xalqı bir yumruq kimi birləşdirən "Qarabağ Azərbaycandır!" ifadəniz bu gün bütün dünya azərbaycanlılarının milli qürur, fəxarət, birlik və həmrəylik göstəricisinə çevrilmişdir. Bu xoş günləri bizlərə yaşatdığınız üçün Sizə dərin təşəkkürümüzü və sonsuz minnətdarlığımızı bildiririk. Bütün məcburi köçkünlər kimi Laçın rayonu Mirik kənd əhalisinin mütləq əksəriyyəti də vandal düşmənlər tərəfindən darmadağın edilmiş ata-baba yurd yerlərimizin bərpası və abadlaşdırılması işində iştirak etmək üçün səbirsizliklə o torpaqlara qayıdacağı günü gözləyir.

**Ulu Tanrı Sizi qorusun!".**

"Siz Azərbaycanın şərəfini, qürurunu, ləyaqətini özünə qaytardınız"

Bakı sakini Vəzir Qasımov yazır:

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Mən Vətən müharibəsinin şəhidi, 1995-ci il təvəllüdlü Şəhriyar Qasımovun atasıyam.

Oğlum Şəhriyar Azərbaycanın işğal altındakı torpaqlarının azad olunması uğrunda aparılan müharibəyə könüllü getmiş və ön cəbhədə düşməni məhv etmək üçün hücuma keçən hərbi hissənin tərkibində döyüşlərə qatılmışdır. Döyüş yoldaşlarının danışdıqlarına və dövlətimizin qiymətləndirməsinə əsasən, tam qətiyyətlə deyə bilərəm ki, oğlum qəhrəmancasına vuruşmuş və arzuladığı şəhidlik zirvəsinə ucalmışdır.

Bu şərəfli yolu tutmuş Şəhriyar Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət göstərdiyinə görə Sizin tərəfinizdən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Qəlbində sonsuz Azərbaycan sevgisi olan Şəhriyar hələ orta məktəbdə oxuduğu dövrdən yaxın əhatəsində Qarabağ uğrunda döyüşlərdə iştirak etməyi və Vətən uğrunda şəhid olmağı arzuladığını bildirirdi. Azərbaycan bayrağının aşiqi idi. Həqiqi hərbi xidmətdə olduğu dövrdə də Şəhriyar könüllü olaraq ön cəbhədə düşmənə qarşı döyüşlərdə iştirak etmişdir. Şəhriyarın Vətən sevgisi yolu nəhayət Qarabağ müharibəsində şəhidlik zirvəsini fəth etməsi ilə yekunlaşdı. Bu gün Şəhriyardan ata-anasına, bacısına və əzizlərinə heç vaxt unudulmayacaq övlad acısı, amma eyni zamanda şərəfli ad və qürur hissi qaldı.

Mən Şəhriyarın bütün əzizləri adından Sizin tərəfinizdən oğlumun "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif etməsini çox yüksək qiymətləndirirəm və buna görə Sizə çox minnətdarıq ki, balamızın adını əbədiləşdirmisiniz.

Biz çox minnətdarıq ki, hər gün bizim qayğılarımızla maraqlanır, övladımızın xatirəsinin əziz tutulması üçün mümkün olan hər şey edilir.

**Möhtərəm cənab Prezident!**

Mən çox qürurluyam ki, Sizin Ali Baş Komandanlığınızla torpaqlarımızın azad olunmasını gördüm, Azərbaycan tarixinin ən şərəfli dövrünün şahidi oldum. Siz Azərbaycanın şərəfini, qürurunu, ləyaqətini özünə qaytardınız. Çox xoşbəxtəm ki, yeganə oğul övladım Şəhriyar da bu şərəfli tarixin xalqımıza yaşadılmasında bilavasitə, qanı-canı ilə iştirak etmişdir. Qarabağımız, xüsusilə Şuşa azadlığına qovuşanda təskinlik tapdım ki, balamın ruhu da rahatlıq tapacaqdır.

Müzəffər Ali Baş Komandan!

Əmin ola bilərsiniz ki, mən də, Şəhriyarın digər əzizləri də hər zaman Sizin əmrinizlə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərə hazırıq. Allah Sizi və ailənizi qorusun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

**"Cənab Prezident, Qələbəyə aparan həmrəylik məhz Sizin sayənizdə mövcud oldu"**

Gəncə sakini Samir Əliyev:

"Müzəffər Ali Baş Komandan,

44 gün davam edən Vətən müharibəsinin Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnməsi və 30 ilə yaxın düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması bir vətəndaş kimi məni hədsiz qürurlandırır. Bu, Sizin də qeyd etdiyiniz kimi, Azərbaycanın haqq savaşı idi. Böyük zəfərlə başa çatan 44 günlük bu haqq savaşında gördüyüm birlik və bərabərlik, düşmənə qarşı bir yumruğa çevrilməyimiz mənə bu xalqın bir parçası olmağımın qürurunu yaşatdı və bunun üçün, heç şübhəsiz, ən böyük təşəkkür Sizə düşür, cənab Prezident. Qələbəyə aparan bu həmrəylik məhz Sizin sayənizdə mövcud oldu. Siz bunu bacardınız. Mən bir şəhid atası olaraq onu deyə bilərəm ki, övladını cəbhəyə, vətən torpaqlarını azad etməyə yollayan hər bir valideyn bir an olsun belə tərəddüd etməyib. Bizim Sizə olan inamımız böyükdür.

Cənab Prezident, məhz bu inam və həmrəylik bizə bu qələbəni gətirdi. Mən öz övladımı vətən uğrunda şəhid verdim, əvəzində yüzlərlə övlad qazandım. Bu gün həmin övladlar bizi bir gün belə tək qoymurlar. Hər kəs, hamı bizə diqqət göstərir. Əlbəttə, bütün bunlar bizi qürurlandırdığı kimi, övladımın ruhunu da sevindirir. Allah Sizi və komandanı olduğunuz Azərbaycan Ordusunu daim müzəffər etsin!".

## Medianın İnkişafı Agentliyinə direktor təyin olundu



Əhməd Məhəmməd oğlu İsmayılov Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru təyin edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

## Azərbaycan G20-nin sammitinə dəvət edilib




Azərbaycan 37 ölkə ilə yanaşı, oktyabrın 30-31 tarixində Romada keçiriləcək "Böyük iyirmilik" (G20) ölkələrinin zirvə görüşünə dəvət edilib. Bu barədə Trend məlumat yaydı. Tədbirə eyni zamanda BMT, Avropa İttifaqı, əsas beynəlxalq maliyyə təsisatları da dəvət alıblar. G20 qrupu cari ildə İtaliyanın sədrliyində İnsanlar, Planet, Rifah deyə üç başlıqla ifadə olunan dayanıqlı və bərabər inkişaf, ətraf mühitin mühafizəsi, yeni təhlükələrin qarşısını almaq kimi hədəflər qarşıya qoyur.

Zirvə görüşü ərəfəsində may-sentyabr ayları ərzində nazirlər səviyyəsində 10 sahəvi (innovasiya və tədqiqat, iqtisadiyyat və maliyyə, kənd təsərrüfatı, mədəniyyət və turizm, ətraf mühit, iqlim və enerji, ticarət, əmək və təhsil, səhiyyə, xarici işlər və inkişaf, cari məsələlər) görüş keçiriləcək. Qeyd edək ki, G20-nin daimi üzvləri Almaniya, ABŞ, Argentina, Avstraliya, Böyük Britaniya, Braziliya, Cənubi Afrika Respublikası, Cənubi Koreya, Çin, Fransa, Hindistan, İndoneziya, İtaliya, Kanada, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya və Avropa İttifaqıdır.

# Prezident İlham Əliyevin Moskvaya səfəri dünya mediasında

## *Prezident İlham Əliyevin Moskvaya səfəri Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb*

***Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 11-də Rusiyaya səfəri və Moskva şəhərində keçirilən görüşlər Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüş, tədbirdən sonra Azərbaycan, Rusiya və Ermənistan liderlərinin mətbuata birgə bəyanatları barədə məlumatlar ayrı-ayrılıqda türkdilli ictimaiyyətə çatdırılıb. O cümlədən qardaş ölkə KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında keçirilmiş ikitərəfli görüşə də geniş yer ayırıb.

Anadolu agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri və Moskvada keçirilmiş görüşlərin nəticələri ilə bağlı türk və ingilis dillərində informasiyalar yayıb. "TRT haber", "Haber Global", "Haber Türk" və digər telekanalları səfərlə bağlı reportajlar yayımlayıb.














Заявление Президента Азербайджанской Республики, Премьер-министра Республики Армения и Президента Российской Федерации

11 января 2021 года

Мы, Президент Азербайджанской Республики И.Г.Алиев, Премьер-министр Республики Армения Н.В.Пашинян и Президент Российской Федерации В.В.Путин заявляем о следующем:

1. В целях реализации пункта 9 Заявления от 9 ноября 2020 года в части разблокировки всех экономических и транспортных связей в регионе, поддерживается предложение Президента Российской Федерации В.В.Путина о создании трёхсторонней Рабочей группы под совместным председательством вице-премьеров Азербайджанской Республики, Республики Армения и Заместителя Председателя Правительства Российской Федерации.

2. Рабочая группа до 30 января 2021 года проведет первое заседание, по результатам которого сформирует перечень основных направлений работы, вытекающих из реализации пункта 9 Заявления, установив в качестве приоритетов железнодорожное и автомобильное сообщение, а также определит иные направления по согласованию между Азербайджанской Республикой, Республикой Армения и Российской Федерацией, далее именуемые Сторонами.







### Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Moskva görüşü Yaponiya KİV-lərinin də diqqət mərkəzindədir

Yanvarın 11-də Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Moskvada keçirilən görüşü Yaponiya kütləvi-informasiya vasitələrinin də diqqət mərkəzindədir. AZƏRTAC xəbər verir ki, Yaponiyanın NHK telekanalı və "Nikkei" qəzeti Rusiya Prezidentinin təşəbbüsü ilə keçirilən görüş, müzakirə olunan məsələlər və qəbul edilən üçtərəfli bəyanat barədə ətraflı məlumat yayıblar. İnformasiyalarda vurğulanıb ki, bu, ötən ilin sentyabrında başlayan və noyabrda başa çatan müharibədən sonra tərəflər arasında keçirilən ilk görüşdür.

Bildirilir ki, görüşdən sonra açıqlama verən liderlər üç ölkənin icra strukturlarının iştirakı ilə bərpa işlərinin aparılması məqsədilə işçi qrupun yaradıldığını elan ediblər. Azərbaycan Prezidenti İlham Əliyevə istinadla atəşkəs haqqında razılaşmanın icra olunduğu və hazırkı vəziyyətlə əlaqədar məmnunluğunu ifadə etdiyi vurğulanıb. Yazılarda münaqişənin tarixinə nəzər salınıb, Azərbaycanın 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarının son döyüşlər nəticəsində azad edildiyi qeyd olunub.

### Ərəb mətbuatı: Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin keçmişdə qaldığını bəyan edib

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 11-də Moskvada keçirilən üçtərəfli görüşdən sonra mətbuata bəyanatla çıxışında söylədiyi "Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik" sözləri ərəb KİV-lərinin diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Misirin "Əl Əhram", "Əxbar əl Youm", "Əl Masr Əl Youm" qəzetləri, "Asiya Əl Youm" və rəsmi MENA informasiya agentlikləri, Səudiyyə Ərəbistanının "Arabnews" nəşri, həmçinin "RT Arabic", "Al Arabia" televiziya kanalları Azərbaycan, Rusiya və Ermənistan liderlərinin görüşünü və onların bəyanatlarını geniş işıqlandırıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev öz bəyanatında nəqliyyat kommunikasiyalarının açılmasının Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, qonşu ölkələrin mənafelərinə cavab verdiyini vurğulayıb. O əmin olduğunu bildirib ki, qonşu ölkələr regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar.

### Qırğızıstan portalları Azərbaycan Prezidentinin Rusiyaya səfəri ilə bağlı materiallar yayıb

Qırğızıstanın "goldenbridgenews.com" və "turkeltoday.info" portalları Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri, orada keçirdiyi görüşlərlə ilə bağlı AZƏRTAC-ın materiallarını yayıblar.

AZƏRTAC xəbər verir ki, portallar "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ikitərəfli görüşü olub", "Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib", "Azərbaycan Prezidentinin, Ermənistan baş nazirinin və Rusiya Prezidentinin bəyanatı", "Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər" sərlövhəli materialların tam mətnini dərc ediblər.

Saytlar öz səhifələrində Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra mətbuata bəyanatlarını da yerləşdiriblər.

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib



Yanvarın 12-də Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə Holdinqin Müşahidə Şurasının növbəti iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xid-



mətindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2021-ci il ərzində Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək 17 portfel şirkətin rəhbərləri ilə görüş keçirilib və Azərbaycan Prezidentinin 2020-ci il 5 noyabr tarixli Fərmanında şirkətlərə verilmiş tapşırığın icra vəziyyəti və digər cari məsələlər müzakirə edilib.

# "Euractiv" portalı: Cənubi Qafqazda sülh, sabitlik və əməkdaşlıq təşəbbüsünün reallaşması üçün fürsət yaranıb




Avropa İttifaqının "Euractiv" informasiya portalında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Vasif Hüseynovun "Cənubi Qafqaz üçün sabitlik paktı" adlı məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, müəllif 1999-cu ildə yaranmış Cənubi Qafqaz üçün sabitlik və əməkdaşlıq paktı kimi uğurlu bir ideyanın həyata keçirilməsi üçün maneənin artıq aradan qalxdığını yazır. V.Hüseynov bildirir ki, 1990-cı illərin sonlarında Cənubi Qafqazın və onun ətrafdakı bəzi dövlətlərin liderləri bölgədə sülh və təhlükəsizliyə nail olmaq, eyni zamanda, regionun iqtisadi inkişafından və transformasiya potensialından maksimum istifadə etmək məqsədilə sabitlik və əməkdaşlıq paktı təsis etməyin lazım olduğu qənaətinə gəlmişdilər. Məqalədə 1999-cu ilin noyabrında ATƏT-in Zirvə görüşündə Azərbaycan Prezidenti Heydər Əliyevin regional problemlərin həlli və Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik paktının təsis olunmasını təklif etdiyi və bu təklifin dəstəkləndiyi qeyd olunur. Vurğulanır ki, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitliyə dair belə bir paktın təsis olunmasının zəruriliyi ilə bağlı konsensusa baxmayaraq, həmin vaxt öz həllini gözləyən böyük bir problem mövcud idi ki, bu da Prezident Heydər Əliyevin bəyan etdiyi kimi, ilk növbədə, Cənubi Qafqazdakı münaqişələrin həlli, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərini geri qaytarması və bir milyondan çox azərbaycanlı məcburi köçkünün öz vətənlərinə qayıtması idi. O vaxt təəssüf ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllində irəliləyiş əldə olunmadığı, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin işğal altında qaldığı müddətdə Ermənistanla hər hansı münasibət qurmağın mümkünsüzlüyü diqqətə çatdırılır.

Müəllif İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan ərazilərinin işğalına son qoyulduğunu və beləliklə, yuxarıda qeyd edilən sülh təşəbbüsünü reallaşdırmaq üçün bir fürsət yarandığını bildirir.

Məqalədə dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata birgə bəyanatları zamanı Prezident İlham Əliyevin fikirləri sitat gətirilir: "Biz bölgədə yeni bir işbirliyi platformasını yaratmalıyıq. Artıq ilkin bəyanatlar verildi. Bu, çoxtərəfli platforma ola bilər. Bu işbirliyi platformasında iştirak edən bütün bölgə ölkələri bundan ancaq faydalana bilər.

Ənənəvi Türkiyə-Azərbaycan-Gürcüstan işbirliyi var. Eyni zamanda, Azərbaycan-Rusiya-İran işbirliyi var. Türkiyə-Rusiya-İran işbirliyi var. Yəni, bütün bu işbirliyi platformalarını biz ümumiləşdirib vahid platforma kimi təqdim edə bilərik. Əgər Ermənistan rəhbərliyi müharibədən düzgün nəticələr çıxararsa və öz əsassız iddialarından əl çəkərsə və gələcəyə baxarsa, o zaman onların da bu platformada yeri ola bilər. Biz buna açığıq və müharibədən sonra Azərbaycanın mövqeyi və verilən bəyanatlar bunu deməyə əsas verir. Biz bu səhifəni bağlamalıyıq, biz bu ədavətə son qoymalıyıq".

V.Hüseynov Qarabağ münaqişənin həllini, o cümlədən bölgədəki bütün nəqliyyat və kommunikasiya əlaqələrinin açılmasını nəzərdə tutan üçtərəfli Bəyanatın həqiqətən də iqtisadi, siyasi və sosial layihələrin reallaşmasına təkan verilməsi baxımından misilsiz bir şans olduğunu vurğulayır. Sonda müəllif vurğulayır ki, Azərbaycanın işğal altındakı ərazilərinin azad edilməsi iki ölkə arasında uzun müddət davam edən ədavətə son qoyulmasına, blokadanın aradan qalxmasına, iqtisadi, ticari və s. əlaqələrin yenidən başlanmasına, bütün bunların Qafqazda sülhün bərqərar olunmasına töhfə verəcəyinə ümidləri artırıb.

# Mərkəzi Bank: Manatın ucuzlaşması ilə bağlı iddialar əsassızdır




Son günlər manatın ucuzlaşması ilə bağlı mətbuatda və sosial şəbəkələrdə gedən əsassız xəbərlərin fonunda formalaşan gözlənti nağd valyuta bazarında müəyyən tələbi şərtləndirib ki, bu da valyuta hərracında tələbin nisbətən artmasına təsir edib. Lakin neftin qiymətinin ötən illə müqayisədə artdığını, "OPEC+"un son toplantısında neft hasilatı ilə bağlı müsbət qərarların qəbul olunduğunu, bütün dünyada COVID-19 virusuna qarşı vaksinasiya proqramlarının artıq başlandığını və Dövlət Neft Fondunun əhəmiyyətli məbləğdə transfertlərini nəzərə alaraq qeyd edirik ki, manatın ucuzlaşması ilə bağlı iddialar əsassızdır. Bu baxımdan hesab edirik ki, nağd valyuta ilə bağlı artan tələb müvəqqəti xarakter daşıyır və qısa zamanda səngiyəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının məlumatında deyilir. Bildirilir ki, son günlər bəzi internet səhifələrində guya bankların qeyri-nağd ABŞ dolları satışlarında problem olduğunu və bunun valyuta hərracları ilə bağlı olduğunu iddia edən fikirlər də əsassızdır. Mərkəzi Bank tərəfindən valyuta hərracları həftədə 2 dəfə (çərşənbə axşamı və cümə axşamı) keçirilir və bu hərraclarda bankların həm nağd, həm də qeyri-nağd valyuta üzrə tələbləri tam təmin edilir. Mərkəzi Bank olaraq bir daha vurğulamaq istərdik ki, 2017-ci ildən başlayaraq artıq 4 il ərzində milli valyutanın məzənnəsi sabitdir və cari ildə də AMB tərəfindən valyuta bazarında stabilliyin təmin edilməsi diqqət mərkəzində saxlanılacaq.

# Professor Fırat Purtaş: "Şuşanın yeni görkəmlə türk dünyasının mədəniyyət paytaxtı seçilməsini gözləyirik"




Böyük Zəfər münasibətilə Azərbaycan xalqını, azərbaycanlı qardaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycanın sevinci Türkiyənin, türk xalqının da sevincidir. Bu sevinci daha da artıran məsələlərdən biri də Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibinin sabiq müavini, professor Fırat Purtaş ifadə edib. Şuşadakı tarixi abidələrin bərpa edilərək yeni görkəm alacağına inandığını bildirən professor əminliklə deyib ki, Şuşa yeni görünüşü ilə türk dünyasının mədəniyyət paytaxtı seçiləcəkdir.

# Mikael Minasyan: "Nikol heç olmasa bir kişi addımı atsın"



"Nikol, ən azı bir cəsarətli iş görməli, heç olmasa bir kişi addımı atmalısan!". SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistan Respublikasının Müqəddəs Taxtdakı keçmiş səfiri, tarix elmləri namizədi Mikael Minasyan Telegram kanalında söyləyib.O, Ermənistanın baş naziri haqqında bir neçə düşüncəsini təqdim edib. SİA oxucularına onun bu fikirlərini təqdim edir.

1. Paşinyan, nə zehni, nə əqli, nə mental, nə də psixoloji cəhətdən belə səviyyəli danışıqlara tamamilə hazır deyil. Əslində, bu adam, sanki Moskvaya ilk dəfə gələn bir çobandır və hündürmərtəbəli binalara baxanda papağı daim düşür.

2. Yalnız bir axmaq adam danışıqlardan bir gün əvvəl nə istədiyini və hansı nəticələrə ehtiyac duyduğunu özünün Facebook səhifəsində yaza bilər. Yazaraq da Paşinyan yalnız kartlarını açıqlamadı, həm də qarşı tərəfin mövqeyini sərtləşdirməsi üçün özü öz yolunu kəsdi.

Azərbaycanlılar onu bir fakt qarşısında qoydular, amma onda bundan imtina etmək üçün bir cəsarət olmadı, heç yoxdur da.

3. Zəif iradəli bir cırtdan kimi, Paşinyan küt yeriş və tutqun gözlərin havası ilə danışıqlar masasına girə bilməz.

4. Müzakirə, danışıqlar masasında Putin kimi böyük insanlar, amma düşüncəsi, duyğuları və insani anlayışları zəif olan Paşinyan kimi insan var idi və o, əsirlər barədə heç danışmadı da və sadəcə, mırıldanmaqla kifayətləndi ki, belə olmazdı.

5. Paşinyan məhbus məsələsini həll etmədi və nəhayət başa düşməlidir ki, bu, onun yeri deyil. Heç nə onun deyil. "Mənim addımım" partiyaasını toplasın və çıxıb getsin. Ölkəni o belə rüsvay edə bilməz. Əlbətdə ki, bu ölkəni öz vətəni hesab edirsə.

6. "Ararat Hayat" otelinin xidmət işçilərinin dediyi kimi, Paşinyan axşam gecə saatlarında otelə gəldi və cəmi 20 dəqiqə ərzində paltarını dəyişdi və çıxıb getdi. Nikolun dəhşətli dərəcədə depressiyaya düşdüyü prinsipcə, başa düşüləndir. O, nə mümkün idisə, hər şeyi uduzdu. İndi o başa düşür ki, bu artıq onun ölkəsi, onun xalqı deyil. Nikol heç olmasa bircə dənə kişi addımı atsın!"

*İnam Hacıyev*

# Adil Əliyev: Azərbaycanın döyüş meydanında qazandığı Qələbə diplomatik müstəvidə davam etdirilir

***Yanvarın 11-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. Ermənistan hakimiyyətinin məğlubiyyəti qəbul edərək kapitulyasiya aktını imzaladığı vaxtdan sonra Azərbaycan Ordusunun qazandığı Qələbəni digər ermənipərəst qüvvələrin qəbul etməsi üçün bu görüş mühüm əhəmiyyət daşıyırdı. Eyni zamanda, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın gücləndirilməsi ilə bağlı bütün detalların müzakirə edilməsi məqsədi daşıyırdı.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin sədr müavini Adil Əliyev bildirib. Adil Əliyev deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın həmin görüşdə iştirak etməsinin qarşısını almaq məqsədilə erməni xalqı küçələrə axışmış, hətta, İrəvanda aeroporta gedən yolu da bağlamışdılar. Erməni xalqı düşünürdü ki, bu görüşdə iştirak etmək Ermənistanın öz dizçökməsini tam qəbul etməsi, siyasi məğlubiyyətinin təsdiq nöqtəsi idi.

Son ana qədər Ermənistan müxalifəti və Rusiyadakı çoxsaylı erməni lobbisi hər vəchlə görüşün pozulmasına çalışdı, Paşinyanı görüşdə iştirak etməməyə, məğlubiyyəti bir daha etiraf etməməyə çağırdı. Amma bütün bunlara baxmayaraq, Paşinyan həmin görüşdə iştirak etdi...

Aydın şəkildə hiss olunurdu ki, erməni baş nazir cəmiyyətdə itirdiyi nüfuzunu bərpa etmək üçün Moskva danışıqlarına ümid edir. Amma, o, bu dəfə də uduzdu. Görüşdə müzakirə olunan qərarları qeyd-şərtsiz qəbul etdi. Paşinyan müzakirələrin Minsk qrupu formatında aparılmasına maraqlı olmasına, bu məqsədlə də öz havadarlarına mütəmadi nikbin məlumatlar ötürməsinə baxmayaraq, görüş Azərbaycanın maraqları çərçivəsində baş tutdu...

Prezident İlham Əliyevin həmin görüşə qalibiyyət qazanmış ölkənin başçısı, zəfər çalan Ordunun Ali Baş Komandanı olaraq qatılması, habelə imzalanmış kapitulyasiya şərtlərinin



dəfələrlə Ermənistan tərəfindən pozulmasına cəhdlər edilməsi, digər qanlı insidentlərin baş verməsinə diqqət çəkməsi ilə Ermənistan hökumətinə və işğalçı ölkənin havadarlarına çox ciddi siyasi mesaj verilmiş oldu.

Aydın məsələdir ki, qələbəni qazanmaq nə qədər çətindirsə, daimi qələbəni qoruyub saxlamaq da bir o qədər çətindir. Biz İlham Əliyevin timsalında hər iki amilin diqqətdə olmasının, bir rəhbər tərəfindən ümumxalq mənafeyinin əsas ideal sayılmasının bariz nümunəsini gördük. Ona sonsuz ümid bəsləyən xalqını heç vaxt yanıltmayan Prezidentimiz tərəfindən döyüş meydanında qazanılmış Qələbəmiz diplomatik və siyasi müstəvidə də böyük uğurla davam etdirildi.

Milli Məclis sədrinin müavini qeyd edib ki, ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın əsas hissəsindən biri də nəqliyyat və kommunikasiya xətlərinin qurulması idi. Moskvada dünən keçirilən görüş çərçivəsində humanitar və kommunikasiya məsələləri ilə bağlı üçtərəfli işçi qrupunun yaradılması barədə müzakirələr aparıldı və təsdiqləndi. Bu, özlüyündə ehtiva edir ki, qəbul edilən müddəalar qeyd-şərtsiz yerinə yetirilməzsə, üçtərəfli əməkdaşlıq formatı olmayacaq.

Biz həmişə deyirdik ki, Azərbaycanın savaşı haqq işidir, mübarizəmiz haqq uğrundadır. Bu səbəbdən də görüşdən əvvəl tərəfimizdən irəli sürülən və yeni bəyanatla təsbit olunmuş tələblər həm maraqlarımızı təmin edir, həm də bütün regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Diplomatik müstəvidə atılan bu addımlar da döyüş meydanında qazanılan qələbə qədər əhəmiyyətlidir, onun məntiqi davamıdır. İşğaldan azad edilmiş ərazilərimizdə nəqliyyat infrastrukturunun qurulması təkcə Ermənistanla deyil, bütün qonşu dövlətlərlə sabit və dinc bir təmasın qurulmasına təminat verəcək. Çünki Azərbaycan bu məsələdə sülhpərvər və yardımsevər ideyalar daşıdığını hər zaman sübut etmiş bir ölkədir.

10 noyabr Bəyanatında Naxçıvanla birbaşa quru yolun yaradılması nəzərdə tutulmuşdu. Dünən Moskvada qəbul edilən Bəyanat artıq bu layihənin qısa bir müddət ərzində həyata keçirilməsini şərtləndirən mühüm amilə çevrildi, siyasi iradənin və diplomatik bacarıqların uğurlu yekunu oldu. Mehri dəhlizinin açılması ilə uzun illərdir təcrid vəziyyətinə düşmüş Naxçıvana Azərbaycanın hər yerindən birbaşa quru yolla gediş-gəliş bərpa olunacaq. Hamıya məlumdur ki, 30 ilə yaxın idi Naxçıvana gediş-gəliş ya hava nəqliyyatı vasitəsilə, ya İran İslam Respublikasının ərazisindən keçməklə mümkün olurdu. Təbii ki, tranzit olaraq başqa ölkənin ərazisindən istifadə etmək həm maddi cəhətdən baha başa gəlir, həm də daşımaların daha ləng həyata keçirilməsi ilə nəticələnirdi... Mehri dəhlizi nəhayət ki, bu narahatlıqlara son qoyacaq.

Bu dəhliz həm də bizə Azərbaycanı Türkiyə ilə birləşdirəcək dəmir yolunun açılması kimi zəruri bir üstünlük qazandıracaq. Açılacaq Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsi olan yeni yol qardaş ölkə ilə əlaqələrimizi daha da gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini artıracaq. Naxçıvana daşımalar daha qısa müddət ərzində, daha az xərclə başa gələcək.

...Deməli olar ki, Ermənistan bu görüşdən heç nə qazanmadı. Şərtlərimizi qəbul etməklə yanaşı, yeganə istəkləri noyabrın 10-dan sonra ələ keçirilmiş erməni diversant-terrorçularının azad olunması olsa da, bu məsələ də həllini tapmadı. Sonda Ermənistan baş naziri mətbuata açıqlamasında erməni diversant-terrorçularını azad etmənin mümkün olmadığı üçün görüşün nəticələrindən məyus olduğunu aydın şəkildə bəyan etdi. Bu görüş - diplomatik müstəvidə qazanılmış bu qələbə ilə Azərbaycan yalnız Ermənistan tərəfinə yox, görüşlə bağlı qabaqcadan məntiqsiz fikirlər irəli sürən, uğurlarımıza kölgə salmağa cəhd edən bütün antimilli qüvvələrə çox ciddi zərbə vurmuş oldu.

## Donald Tramp Vaşinqtonda fövqəladə vəziyyət rejimi elan edib



ABŞ Prezidenti Donald Tramp yeni seçilmiş prezident Cozef Baydenin yanvarın 20-də keçiriləcək inauqurasiyası ərəfəsində təhlükəsizliyin təmin olunması ilə əlaqədar Vaşinqtonda fövqəladə vəziyyət rejimi elan edib və yerli hakimiyyət orqanlarına federal yardım göndərib. AZƏRTAC Amerika KİV-lərinə istinadla xəbər verir ki, bu barədə Ağ evin yaydığı sənəddə deyilir. "Prezident Donald Tramp paytaxt Kolumbiya dairəsində 2021-ci il yanvarın 11-dən 24-dək fövqəladə vəziyyət rejimi elan edib və 59-cu prezident inauqurasiyası ilə bağlı yaranan fövqəladə vəziyyətə operativ reaksiya üçün əlavə federal yardım göndərilməsi barədə göstəriş verib", - deyə Ağ evin məlumatında bildirilir.

## Paşinyanın arvadı və qızı Rusiya vətəndaşı olurlar?



Nikol Paşinyanın həyat yoldaşı Anna Hakobyan və qızı Mariam Paşinyanla birlikdə yanvarın 14-də Moskvaya gizli səfər planlaşdırır. SİA-nın verdiyi xəbərə görə, bu barədə Mediaport agentliyi yazır. Mənbənin verdiyi məlumata görə, N.Paşinyanın həyat yoldaşı və qızı Rusiya vətəndaşlığını almaq üçün məxfi şəkildə sənədlərin hazırlanmasına başlamaq məqsədi ilə Rusiya Federasiyasına uçacaqlar.

## Azərbaycanın ixrac xəritəsi genişlənir

İqtisadiyyat Nazirliyi yanında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə pomidor istehsalı və ixracı sahəsində fəaliyyət göstərən sahibkarlarla onlayn formatda görüş keçirilib. Bu barədə SİA-ya nazirlikdən məlumat verilib. Qeyd olunub ki, dövlət başçısının tapşırığından irəli gələn məsələlərin həlli məqsədilə AZPROMO və İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbər şəxslərinin, Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələrindəki ticarət nümayəndələrinin iştirakı ilə təşkil olunmuş görüşdə ixracın şaxələndirilməsi, ixrac potensialının artırılması, satış üçün yeni prioritet bazarların araşdırılması məsələləri müzakirə edilib.

20-dən çox şirkətin nümayəndəsinin və 40-a yaxın fərdi sahibkarın iştirak etdiyi tədbirdə AZPROMO-nun rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev ixracatçılara bu sahədə yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində İqtisadiyyat Nazirliyinin gördüyü işlər və göstəriləcək dəstək mexanizmləri barədə məlumat verib, sahibkarları bu sahənin inkişafı məqsədilə dövlət qurumları ilə sıx əməkdaşlığa dəvət edib. Görüşdə ənənəvi bazarlarla yanaşı, Körfəz və Avropa ölkələrə satışın həyata keçirilməsi istiqamətində işlərin başlandığı bildirilib. Sonda ölkənin müxtəlif regionlarda pomidor istehsalı sahəsində fəaliyyət göstərən ixracatçıların fikirləri dinlənilib, yeni bazarlara ixrac prosedurları ilə bağlı sahibkarları maraqlandıran suallar cavablandırılıb.

# "Üçtərəfli bəyanat regionda sabitliyin və təhlükəsizliyin davamlı olması istiqamətində atılan növbəti addım kimi qiymətləndirilməlidir"

***Yanvarın 11-də Moskvada baş tutan üçtərəfli görüş, əslində, iki aydır davam edən postmüharibə dövründə əldə edilən nəticələrin bir növ hesabatı və bundan sonrakı fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsi mahiyyəti daşıyırdı.***

Üç ölkə rəhbərinin görüşünün olduqca ciddi strateji əhəmiyyəti var idi. Bu görüşü həm noyabrın 10-da imzalanmış 9 maddədən ibarət sənədə əksini tapan strateji prinsiplərin bir daha təsdiq və qəbul edilməsi, həm də məhz həmin prinsiplər əsasında regionda sabitlik və təhlükəsizlik məsələlərinin daha da möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım idi. Nəzərə alsaq ki, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanat, əslində, Ermənistanın kapitulyasiya aktına imza at-



ması idi, onda yeni imzalanmış 4 maddəlik bəyanatı elə bu prosesin davamı kimi qiymətləndirə bilərik. Yəni, daha dəqiq desək, bu il yanvarın 11-də imzalanmış üçtərəfli bəyanat bizi strateji hədəflərimizə bir qədər də yaxınlaşdırdı. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat qeyd edib ki, bəyanatda qeyd olunan əsas məsələlər yol-nəqliyyat infrastrukturunun bərpasına aiddir və bu, hazırkı mərhələdə doğrudan da olduqca prioritet məsələdir. Çünki regionun nəqliyyat və iqtisadi əlaqələrinin pozulması, bunun 30 ildən çox davam etməsi regional inteqrasiya və iqtisadi inkişafa çox böyük zərbə idi. Əslində, hazırkı tarixi mərhələdə iqtisadi inkişafın gətirəcəyi rifah regionda sülh və sabitliyin də davamlı olması üçün başlıca amillərdən biridir. Ona görə də bəyanatda növbəti mərhələ üçün konkret icraedici strukturun yaradılması, onun fəaliyyət istiqamətlərinin və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi qarşıdakı mərhələdə regionun nəqliyyat-kommunikasiya infrastrukturunun tezliklə bərpa ediləcəyindən xəbər verir.

Hikmət Babaoğlunun sözlərinə görə, üçtərəfli bəyanatda öz əksini tapan ən əsas məsələlərdən biri isə Azərbaycanı Naxçıvanla birləşdirən dəmir yolu və avtomobil yolunun təmin edilməsidir. Bu, olduqca vacib bir kommunikasiyadır və təkcə Azərbaycanın deyil, qardaş Türkiyənin, eyni zamanda, digər qonşu ölkələrin də iqtisadi maraqlarının realizə olunması baxımından əhəmiyyətlidir. "Görüşdə önə çıxan əsas məsələlərdən biri də Ermənistan baş nazirinin problemin hələ nizamlanmaması haqqında səsləndirdiyi sərsəm fikirlərin ciddiyə alınmaması və heç bir yazılı sənədə daxil edilməməsi oldu. Azərbaycan Prezidenti isə artıq münaqişənin keçmişdə qaldığını bildirməklə bir daha bu mövzunun spekulyasiya mövzusuna çevrilməsi cəhdinə son qoydu. Bütövlükdə isə imzalanan yeni üçtərəfli bəyanat regionda sabitliyin və təhlükəsizliyin davamlı olması istiqamətində atılan növbəti addım kimi qiymətləndirilməlidir.

# Xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər missiyası

*Fakt budur ki, Heydər Əliyev Azərbaycanı öz xilaskarlıq missiyası ilə daxili və xarici düşmənlərdən qorudu, xilas etdi, Onun siyasi varisi İlham Əliyev bu tarixi qələbə, zəfər müjdəsi ilə davam etdirdi*

***Sovet hakimiyyəti dağıldıqdan sonra müstəqilliyinə qovuşan Azərbaycanın üzləşdiyi çətinliklər, xaos Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratmışdı. Digər tərəfdən, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyllərinin baş qaldırması yenicə müstəqilliyini əldə etmiş Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması riski ilə üzləşdirmişdi. Artıq bu reallıq özünü daha çox göstərməyə başlaması ilə yanaşı, ölkədaxili siyasi hərc-mərcliklərin kəskinləşməsi dövlətçiliyimizin əsaslarını laxlatmağa başlamışdı - gözləri respublikamızda olan xarici dairələr öz maraqlarının təminatı yönündə öz məkirli planlarını işə salmaqla vəziyyətin daha da mürəkkəbləşməsinə səbəb olmaqda idilər.***



***Məhərrəm Əliyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezidentin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri***

Belə olan bir vəziyyətdə Qarabağ cəbhəsində baş verən hadisələr də arxa plana keçmiş, hətta ayrı-ayrı silahlı birləşmələr dövlətin təhlükəsizliyini, düşmənin işğalçılıq siyasətinin qarşısını almaları yerinə ya siyasi oyunların girovlarına çevrilir, ya da şəxsi maraqlarını düşünərək maddi gəlirlərini müharibə yolu ilə artırmaqla məşğul idilər.

Xalqa Lider, Sərkərdə lazım idi və məhz Onun xilaskarlıq missiyasını icra etməsi nəticəsində Azərbaycan dövləti düşdüyü ağır hərbi, siyasi böhranlardan qurtula bilərdi. Bu Şəxsiyyət isə əlbəttə ki, Heydər Əlirza oğlu Əliyev idi!

## Xalq da yaxşı bilir və dərk edirdi ki, sarsılmaz iradə, sınmaz qətiyyət, sonzuz əzm və müdrilik ölkəni dəhşətli nəticələrdən qoruya bilər

O da əbəs deyildi ki, məhz belə bir gərgin və böhranlı vəziyyətdə xalq öz doğru seçimini və qərarını verdi. Daha dəqiq desək, o zamanın zəruri çağırışı sosial sifariş idi və bu sifarişin təməlində xilaskar Heydər Əliyevin xilaskarlıq missiyası dayanırdı. Çünki xalq da yaxşı bilir və dərk edirdi ki, yalnız sarsılmaz iradə, sınmaz qətiyyət, sonzuz əzm və müdrilik ölkəni dəhşətli nəticələrdən qoruya bilər .Parçalanmış xalqı birləşdirən, dünya azərbaycanlılarını bir araya gətirərək müstəqilliyimizi qoruyan, bunun davamı olaraq isə yalnız inkişaf və tərəqqi yolunu tutan Dahi Şəxsiyyət Heydər Əliyev artıq o zamandan uzaqgörən siyasətini müəyyən edərək, ölkəmizi daxili və xarici düşmənlərin əlindən xilas etdi.



Nəticədə siyasi-diplomatik, iqtisadi cəbhədə qazanılan hər bir uğurun təməlində gələcək Azərbaycanın qüdrət, inkişaf və zəfər simvolları müəyyən edildi və bu faktor köklü şəkildə ölkəmizi dünya arenasına çıxarabildi. Çünki, qarşıda daha böyük, nəhəng qalibiyyətlər və zəfərlərin dayanması kimsədə şübhələr doğurmurdu.

Əgər bu gün biz müstəqil, güclü və qüdrətli, qalib Azərbaycan haqqında bəhs ediriksə, fikirlərimizi bölüşürüksə, bu reallıqların hər birində Heydər Əliyev imzasını görmüş oluruq.

Məhz bu şərəfli missiya keçmişimizi özümüzə qaytardı, bu günümüzn uğur reallığını sübuta yetirdi və sabahımızın növbəti qələbələrinin müjdəsini xalqımıza nəsib etdi

O da əbəs deyil ki, Azərbaycan xalqının Müzəffər Sərkərdəsi, Ali Baş Komandanı, Prezident İlham Əliyev cənabları bilavasitə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçı, varisi olaraq hər bir vətənsevər azərbaycanlının qəlbində özünəməxsus yerə sahibdir. Və fakt budur ki, Heydər Əlirza oğlu Əliyev Azərbaycanı öz xilaskarlıq missiyası ilə daxili və xarici düşmənlərdən qorudu, xilas etdi, Onun siyasi varisi İlham Əliyev bu tarixi qələbə, zəfər müjdəsi ilə davam etdirdi. Məhz "Qarabağ Azərbaycandır!" tarixi kəlamı ilə!

30 il işğalçı Ermənistanın tapdağı altında qalan Qarabağ torpaqlarımız 44 günlük zəfər yürüşündə işğaldan azad edildi. Bəli, "Xilaskarlıqdan Qalibiyyətə!" Məhz bu şərəfli missiya keçmişimizi özümüzə qaytardı, bizi bir xalq, Millət olaraq birləşdirdi bu günümüzün uğur reallığını sübuta yetirdi və sabahımızın növbəti qələbələrinin müjdəsini xalqımıza nəsib etdi. Artıq onu da əminliklə vurğulaya bilərik ki, gələcək nəsillərimizin daha parlaq və qüdrətli bir dövlətdə yaşayacağına heç kim şübhə etməsin, çünki bunu Cənab Ali Baş Komandanımız Şuşamızın azad olunduğu gün və sonrakı müraciətlərində dəfələrlə, qətiyyətlə vurğuladı!



## Ona olan inam və ümid özünü bütün cəhətlərdən doğrultdu - xalq öz Liderinin, Müzəffər Sərkərdəsinin ətrafındadır!

Müzəffər Ordumuzun Ali Baş Komandanı Cənab İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərək, onun ruhu qarşısında baş əyməsi və həmin an qəlbində keçirdiyi xoşbəxtlik və qürur hislərini xalqımızla bölüşməsi, ata vəsiyyətini ləyaqət və şərəflə yerinə yetirməsini söyləməsi həqiqi xilaskar və qalib sərkərdəyə layiq anlar idi. Biz, bu tarixin və qürurlu anların canlı şahidləri olaraq özümüzü ən xoşbəxt və ən qürurlu nəsil hesab edə bilərik.

Hələ 17 il əvvəl - xilaskarlıq missiyasından qələbə salnaməsinə keçilən dövrün yeni tarixi yazılmışdı. 2003-cü ildən böyük ümid və inamla xalqımızın arzusu və seçimi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin siması və siyasətində davam etdi. Olduqca məsuliyyətli və strateji hədəflərlə, məqsədyönlü konsepsiya və dövlətçilik quruluşu ilə başlanan uğurlu siyasət, Heydər Əliyev siyasi kursuna sadiqliklə bütün daxili və xarici siyasətin tam mərkəzində Azərbaycanın əbədi və əzəli torpaqlarının düşmən tapdağından azad olunması idi. "Xilaskarlıq salnaməmizin" müəllifləri Heydər Əliyev, İlham Əliyev - gələcək irsimiz və nəsillərimizə danışacağımız ən dəyərli uğur hekayəmiz!

## Dünyanın bir sıra aparıcı dövlətləri Azərbaycanın Qarabağda apardığı hərbi strategiyası, müharibə metodları barədə öyrənir, əldə edilən qələbənin mühüm meyarlarını hərbi ədəbiyyatlarına daxil edirlər

Nəhayət, 2020-ci ilin 8 noyabr tarixi "Qarabağ Azərbaycandır!" nidası qoyulmuş oldu. Riyakar və daim cinayətkar siyasəti ilə dünyada işğalçı imici formalaşdıran Ermənistan əbədi və əzəli torpaqlarımızı işğal edərək beynəlxalq hüququn prinsiplərini pozması ilə kifayətlənməyərək, daha da azğınlaşması, qeyri qanuni məskunlaşma, yeni ərazi iddiaları irəli sürərək mülki əhalimizə qarşı terror cinayətlər törətdilər. İllərlə yaratdıqları güclü erməni ordusu mifinə nəinki dünyanı hətta özlərini belə inandırmağı bacarmışdılar. 90-cı illərdə SSRİ ordusundan qalan silah və sursatlar, ermənipərəst qüvvələrin dəstəyi ilə öz işğalçı siyasətini həyata keçirərək ağır cinayət və soyqırım aktları törətdilər. Münaqişənin təmas xəttindən uzaq məsafələrə doğru genişlənməsi ermənilərin yeni ərazi iddialarının və işğal altında saxladıqları torpaqlarda əbədi məskunlaşmaq niyyətinin bariz nümunəsi idi. Ermənilərin ötən ilin iyulunda Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməsi, mülki əhaliyə qarşı cinayətkar təxribatların törədilməsi riyakar niyyət və məqsədi bütün dünyaya nümayiş etdirdi. Buna baxmayaraq, Azərbaycan dövləti səbr və dözüm nümayiş etdirdi və beynəlxalq hüquq və prinsiplərlə, danışıqlarda haqlı mübarizəmizi apardı, ancaq güclü nizami ordumuzun qurulması ilə ən müasir silah və döyüş texnikaları ilə təmin olunmuş silahlı qüvvələrimiz bütün riyakarlıq və cinayətlərin cavabını verərək qələbə qazandı. Əbəs deyil ki, artıq dünyanın bir sıra aparıcı dövlətləri Azərbaycanın Qarabağda apardığı hərbi strategiyası, müharibə metodları barədə öyrənir, əldə edilən qələbənin mühüm meyarlarını hərbi ədəbiyyatlarına daxil edirlər.

Digər tərəfdən, cənab Prezident İlham Əliyev "Azərbaycanın ərazi bütövlüyü heç zaman danışıqlar mövzusu olmayıb və olmayacaq", deyərək bütün beynəlxalq təzyiqlərin qarşısında məğrur, qətiyyət və dözmlə dayanaraq, səbr və iradə nümayiş etdirərək, xal-

# Xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər missiyası

*Fakt budur ki, Heydər Əliyev Azərbaycanı öz xilaskarlıq missiyası ilə daxili və xarici düşmənlərdən qorudu, xilas etdi, Onun siyasi varisi İlham Əliyev bu tarixi qələbə, zəfər müjdəsi ilə davam etdirdi*



qının ona olan inam və dəstəyinə arxalanaraq tarixi adını, Qalib Sərkərdə adını xalqımızın qəlbinə və tarixinə əbədi həkk etdirdi.

## 2021-ci il növbəti uğurlu və strateji naliyyətlərlə yadda qalan illərdən olacağına hər birimiz əminik

Artıq 2020-ci il Azərbaycan tarixinə "Qələbə ili" kimi daxil oldu. Cənab Ali Baş Komandanın müdrik və qətiyyətli siyasəti, məğrur və iradəli Azərbaycan Ordusunun əzmi, qanını canını qurban verərək əbədiyyətə qovuşan şəhidlərimiz ruhu və qazilərimizin sağlamlığı bahasına tariximizə bəxş edilən şanlı qələbə bütün dünya azərbaycanlılarını dəmir yumruq ətrafında sıx birləşdirdi və həmrəyliyimiz daha da gücləndi. "Qarabağ Azərbaycandır!" vurğulayan Cənab Prezident İlham Əliyev onu xəyallarımızdan tariximizin gerçəkliyinə çevirdi.

Prezident İlham Əlyevin işğaldan azad edilmiş ərazilərə səfəri zamanı erməni vəhşilik və vandalizmini şəxsən özünün təqdimatı ilə dünyaya çatdırması, qələbənin haqlı mübarizəmizin nəticəsində əldə olunduğunu bir daha sübut etdi. Tarixi, əbədi və əzəli torpaqlarımızda ermənilərin illərlə etdiyi vəhşiliklər, tarixi və mədəni abidələrimizin dağıdılması hər birimizi çox narahat edir, ancaq "Böyük Qayıdış" planı bütün yaralarımızı sağaldacağına inanırıq və əminik. Bərpa işlərinin başlanması bir daha sübut edir ki, Qarabağ öz tarixi gözəlliyinə qovuşacaq və bütün dünya uğurlu layihələrin icrasına şahidlik edəcək.

2021-ci il növbəti uğurlu və strateji naliyyətlərlə yadda qalan illərdən olacağına hər birimiz əminik. Yeni infrastruktur və yol layihələrin icrası, nəzərdə tutulan uğurlu işlərin tez bir zamanda həyata keçiriləcəyinə zəmin yaradır. İşğaldan azad olunmuş ərazilərimizdə keçiriləcək çox mühüm və tarixi abidələrimizin yenidən bərpa olunması, irsimizin, mədəniyyətimizin ən gözəl dövrə qədəm qoyması müjdəsini verir. Şəhərlərimizin tarixi adlarına qovuşması, tarixi, mədəni, dini irsimizin öz tarixi və haqlı sahibinə qovuşması bizi çox sevindirir. Qanı və canı ilə tariximizə şanlı qələbəni nəsib edən şəhidlərimiz və qazilərimizin ailələri daim diqqət və qayğı ilə təmin olunacaq. Şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə sağlamlıq diləyirik. Torpaqlarımızın işğaldan azad olunması, tarixi qələbəmizin xəyallardan gerçəyə çevrilməsində onların misilsiz xidmətləri heç zaman unudulmayacaq.

Cənab Ali Baş Komandan İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə işğaldan azad olunmuş ərazilərə səfəri zamanı əsgərlərimizin coşqusu, Cənab Prezidentin dünya ictimaiyyətinə tarixi və strateji mesajları 44 günlük mübarizədə nümayiş etdiyi əzm, iradə və qətiyyətin davamı idi. Dünya ictimaiyyəti Azərbaycan Ordusu və xalqının coşqusunda sonsuz məhəbbətin, hədsiz inam və həyəcanının şahidi oldular. Səmimi foto və dialoqlarla yadda qalan səfər təsuratlarını xalqımız heç zaman unutmayacaq.

## Azərbaycanımızın məğrur, vətənpərvər, cəsur oğullarını nəsillərimiz tanıdı

44 günlük haqq savaşı adlarını tariximizə əbədi həkk etdirən qəhrəman şəhid və qaziləri tanıtdı. Azərbaycanımızın məğrur, vətənpərvər, cəsur oğullarını nəsillərimiz tanıdı və daim gələcək irsimizə tanıdacaq. Vətən uğrunda qanını canını fəda edən şəhidlərimiz, sağlamlığını qurban verən qazilərimizin vətən borcu ödəndi. Hər qarış torpaqlarımızın azad olunmasına görə onlara borcluyuq və heç zaman unutmamalıyıq.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə həyata keçirilən sosial dəstək və dayaq məqsədli yardım aksiyaları, şəhid və qazi ailələrinə xüsusi həssaslıq və qayğı ilə yanaşma xalqımız tərəfindən daim rəğbət və sevgi ilə qarşılanır. Bizlər isə inanırıq və əminik ki, Xilaskarlıq Missiyası xalqımızın həmrəylik və milli birlik ruhunda hər zaman uğurla davam edəcək və ölkəmiz daim qüdrətlənəcək, çünki bu missiyanın təməl prinsipi Qələbə və Zəfər gerçəkliyidir. Yaşasın Azərbaycan, yaşasın bizə bu qələbəni yaşadan Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!

## Anjela Elibeqova: "Ermənistanın iqtisadiyyatı ölür"



***"Müharibədə itkin düşən, yaralanan və öldürülən nə qədər məhbusun olduğunu bilmirik". SİA xəbər verir ki, bu barədə Cənubi Qafqaz üzrə mütəxəssis Anjela Elibeqova özünün Facebook səhifəsində qeyd edib.***

Mütəxəssis Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında 11 yanvar tarixində Kremldə keçirilmiş üçtərəfli danışıqlara toxunub. "Üçtərəfli görüşdən sonra məlum oldu ki, hərbi əsirlər məsələsi həll olunmur. Xatırladım ki, əvvəllər "hamının hamıya" prinsipi ilə mübadilə barədə razılığa gəlinmişdi, Azərbaycanın iki əsirini almaq üçün buna ehtiyacı var idi. Əliyev bu problemi bəzi məhkumlarımızı geri qaytarmaqla həll etdi. Neçə məhbusun və nə vaxt qaytarılacağı bəlli deyil. Başqa sözlə, "hamının hamıya" formulu hazırda yalnız Bakının xeyrinə işləyir. Çünki yalnız müharibə əsir götürülənlərin deyil, 9 noyabrdan sonra əsir götürülənlərin də taleyi qeyri-müəyyən olaraq qalır. Xatırladım ki, Əliyev onları terrorçu və cinayətkar elan edib mühakimə edə bilər. Gələcəkdə elə keçiriləcəklərin hansı statusa sahib olacağı da qaranlıqdır. Gorus-Qafan yolunda əsir götürülən bir mülki şəxsin terrorçu kimi tanınacağı da bəlli deyil. Moskvaya səfər isə bu məsələləri həll etmədi. Bundan əlavə, itkin düşənlərin taleyi ilə bağlı sual da qeyri-müəyyən olaraq qaldı. Xatırladım ki, müharibədə itkin düşən, yaralanan və ölən nə qədər insanın olduğunu da bilmirik.

Bu fonda bölgənin iqtisadi əməkdaşlığı, perspektivləri və nəqliyyat kommunikasiyaları haqqında nikbin mətnlər dinlənildi. Əgər məhkumlarla bağlı məsələni bu şəkildə "həll edirsinizsə" və rabitə açmaq müqabilində geri qaytarılan məhkumların vəziyyəti belə qarşılanmırsa, onda hansı iqtisadi əməkdaşlığı gözləyirsiniz? Türkiyə-Azərbaycan münasibətlərinin genişlənməsi iqtisadiyyatımızı tamamilə məhv edir, iqtisadiyyatımız ölür və bu fonda qeyd olunan müsbət perspektiv məgər varmı?", deyə Anjela Elibeqova sual edib.

## "Ölkəmizin geoiqtsadi əhəmiyyəti daha da artacaq"

***"Yanvarın 11-də Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşün nəticəsi ölkəmiz üçün geoiqtisadi əhəmiyyət daşıyır. Bu, "Mehri dəhlizi" - Naxçıvana, daha sonra Türkiyəyə dəmir yolunun açılması üzrə işlərin başlaması deməkdir".***

"İki sahil" xəbər verir ki, bu barədə iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, beynəlxalq kommunikasiyaların bərpası regionun inkişafında dinamizm yaratmaqla bərabər, həm də etibarlı təhlükəsizliyə xidmət edəcək. "Dəhlizin istifadəyə verilməsi praktik olaraq Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevrir. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Dəhliz həm də Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən iş adamları ilə Naxçıvandakı iş adamları arasında əlaqələrin, əməkdaşlığın qurulması baxımından vacibdir ki, bu da qısa vaxtda məhsulların nəql edilməsinə imkan yaradacaq. Bunun Azərbaycanın iqtisadi inkişafına, eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına müsbət təsirləri olacaq".

Deputat qeyd edib ki, Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri güclənəcək, ölkəmizin geoiqtsadi əhəmiyyəti artacaq. Gözlənilir ki, bu dəhliz Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına töhfə verməklə sahibkarların daha böyük bazarlara çıxışını təmin edəcək.

## İğdır-Naxçıvan qaz kəməri üçün yaxın aylarda boru istehsalı başlayacaq



**İğdır-Naxçıvan qaz kəmərinin tikintisi üzrə tenderin yaxın aylarda başa çatması gözlənilir. Trend xəbər verir ki, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz deyib. O bildirib ki, tenderdən dərhal sonra boruların istehsalı başlayacaq: "Biz tikintini 12 ay ərzində başa çatdırmağı planlaşdırırıq. Bu, İğdırın strateji əhəmiyyətini artıracaq ən vacib layihələrdən biridir". Nazir əlavə edib ki, qaz kəmərinin yolunda yerləşən yaşayış məntəqələri də gələcəkdə bu layihədən qaz ala biləcək.**

**Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəməri layihəsinə əsasən İğdır şəhərindən Naxçıvana (Sədərək) 85 km boru kəməri çəkiləcək. Boru kəməri SOCAR və Türkiyənin "BOTAŞ" şirkətinin birgə əməkdaşlığı ilə inşa olunacaq.**

# “Eurasia Daily Monitor” nəşri Azərbaycanın Qarabağ zəfərindən yazır

***ABŞ-ın “Jamestown” Fondunun “Eurasia Daily Monitor” nəşrində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Fuad Çıraqovun Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizə və ölkəmizin Qarabağ müharibəsində qazandığı Qələbə ilə bağlı məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə 2020-ci ildə Azərbaycanda baş verən hadisələr, həyata keçirilən islahatlar, eləcə də II Qarabağ müharibəsi barədə söhbət açılır.***


The JAMESTOWN FOUNDATION Global Research & Analysis | ABOUT US | PROGRAMS | REGIONS | PRESS/MULTIMEDIA | STORE

EURASIA DAILY MONITOR

**Year 2020 in Review: Azerbaijan Faces the Pandemic and a Victorious War in Karabakh**

Publication: Eurasia Daily Monitor Volume: 18 Issue: 5

By: Fuad Chiragov

*January 11, 2021 04:51 PM Age: 14 hours*

(Source: Daily Sabah)

It is worth recalling that 2019 was a year marked by domestic politics, reforms and broad caution about the conflict between Azerbaijan and Armenia. Experts and observers on all sides avoided rushing to quick judgements about whether the so-called Velvet Revolution that overtook Armenia in 2018 would eventually lead to a peaceful resolution in Karabakh (see EDM, January 27, 2020). But those trends quickly started to reverse at the start of last year.

While patiently waiting for the domestic dynamics of Armenian politics to reach their logical conclusion and for Prime Minister Nikol Pashinian to finally clarify his position on Karabakh, the Azerbaijani leadership began

Müəllif il ərzində ölkə daxilində baş verənləri təhlil edərək Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərindən bəhs edir. Bundan başqa, koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının rəhbər şəxslərindən ibarət qərargahın yaradıldığını bildirir.

Məqalədə ötən il iyul ayının 12-16-da Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycan-Ermənistan sərhədində dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutduğunu diqqətə çatdırır. Həmçinin bildirilir ki, 2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri qətiyyətli əks-hücum əməliyyatlarına başlayıb və bir neçə rayonu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edib. Minlərlə insanın ölümü ilə nəticələnən və 44 gün davam edən Vətən müharibəsinə noyabrın 10-da imzalanmış atəşkəs Bəyanatı ilə son qoyuldu. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış Bəyanatın tələblərinə əsasən, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal altında olan üç rayonundan da çıxarıldı. Azərbaycanlı məcburi köçkünlərin nəhayət ki, 27 illik həsrətdən sonra öz torpaqlarına qayıtmaq imkanı yarandı.

Müəllif bildirir ki, ikinci Qarabağ müharibəsinin bitməsi Cənubi Qafqaz üçün yeni infrastrukturun formalaşmasına geniş imkanlar açıb. Üçtərəfli Bəyanata əsasən, Azərbaycanla Ermənistan arasında, o cümlədən bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri 30 ildən sonra yenidən bərpa olunacaq. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da daxil olmaqla, Azərbaycan və digər dövlətlərin rəsmiləri Cənubi Qafqaz üçün alternativ gələcək təklif ediblər və hətta Ermənistanı on illərdir təcrid olunduğu regional layihələrə qoşulmağa dəvət ediblər. Beləliklə, Ermənistan bu cür çağırışları qəbul edəcəyi təqdirdə bir vaxtlar müharibə aparan dövlətlərin sülh əldə edə biləcəyi il bağlı ehtimallar mövcuddur.

# Andrey Petrov: Sərhədlərin açılması Azərbaycan iqtisadiyyatına müsbət təsir edəcək

“Nəqliyyat yollarının açılması istiqamətindəki işlərin təfərrüatı ortaya qoyuldu. Sərhədlərin açılmasını Ermənistan da daxil olmaqla bütün tərəflər dəstəklədi. Cənubi Qafqazdakı vəziyyəti həll etmək üçün yaradılan yeni işçi format çərçivəsində yol tikintisi istiqamətində görüləcək işlər müəyyənləşdiriləcək”.



Bunu “Report”un Rusiya bürosuna “Vestnik Kafkaza” İnformasiya Agentliyinin eksperti Andrey Petrov bildirib.

A.Petrovun fikrincə, sərhədlərin açılması Azərbaycan iqtisadiyyatına da müsbət təsir edəcək: “Nəqliyyat yollarının açılması iqtisadi əlaqələrin dirçəlməsinə gətirib çıxaracaq. Azad edilən ərazilərdə salınacaq dəmir yolu xətləri Naxçıvan üzərindən Türkiyəyə uzanaraq Azərbaycanın bu ölkə ilə iqtisadi əlaqələrini daha da genişləndirəcək. Rusiya üçün isə bu qərar Ermənistanla hazırda mövcud olmayan tammiqyaslı dəmir yolu bağlantısının açılmasına şərait yaradacaq”.

Xatırladaq ki, 11 yanvar tarixində Moskva şəhərində Azərbaycan, Rusiya və Ermənistan liderləri görüşün yekununda birgə bəyanat imzalayıblar.

# “İmzalanmış bəyanat ölkəmizin milli maraqlarını özündə əks etdirir”

***“Yanvarın 11-də Moskvada üç dövlətin rəhbəri tərəfindən imzalanmış üçtərəfli bəyanat, 10 noyabr 2020-ci il tarixində imzalanmış bəyanatın bir növ davamıdır və dövlətimizin milli maraqlarını özündə əks etdirir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyilb.***



Komitə sədri vurğulayıb ki, bu bəyanat da əsasən, yol, nəqliyyat infrastrukturunun bərpa edilməsinə diqqətin cəlb olunması, həm region dövlətlərinin iqtisadi, mədəni inkişafı, həm dövlətlər arasında qarşılıqlı etimadın yaradılması, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. “Məlum olduğu kimi, 30 ildir ki, Naxçıvan Muxtar Respublikası blokada şəraitindədir. Bəyanatın şərtlərinə görə, Naxçıvana dəmir yolu və nəqliyyat yolu açılacaq və bu da nəinki, tək ölkəmiz üçün, eləcə də bütün region dövlətləri üçün yeni inkişaf perspektivləri açır. Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatın imzalanması zamanı səsləndirdiyi, “Qarabağ münaqişəsi artıq tarixdə qaldı”, ifadələri deməyə əsas verir ki, müharibə bitmiş və bundan sonra regionda diqqət daha çox qarşılıqlı əməkdaşlığa, insanların rifah halının yaxşılaşdırılmasına, rahat, sülh şəraitinə yaşamasına yönəldiləcəkdir. Yol insanları, ölkələri birləşdirir, əlaqələri, münasibətləri möhkəmləndirir. İnanırıq ki, imzalanmış bəyanatda əksini tapan müddəalar hər üç dövlətin rəhbərləri tərəfindən inamla həyata keçiriləcək, təhlükəsizliyə, insanların xoşbəxt yaşayışına xidmət edəcək və regiona yeni bir həyat bəxş edəcək”, deyə Tahir Rzayev bildirib.

# Vüsal Qasımlı: Regional kommunikasiyaların açılması iqtisadi arxitekturanı dəyişəcək

***“Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra liderlər mətbuata bəyanatla çıxış ediblər. Bəyanat regionda tamamilə yeni vəziyyətin yaranmasına - nəqliyyat kommunikasiyalarının bərpasına yönəlib”. Bunu SİA-ya açıqlamasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) rəhbəri, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyib.***



Regional kommunikasiyaların açılması perspektivinə münasibət bildirən İİTKM-in rəhbəri bildirib ki, Azərbaycan regionun iqtisadi arxitekturasını müəyyənləşdirən yeni reallıq yaradıb: “İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində aparılan iqtisadi-riyazi hesablamalar göstərir ki, kommunikasiyaların açılması və iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi həm regiona, həm də ayrı-ayrı ölkələrə fayda gətirəcək. Məsələn, qravitasiya modelinə əsasən kommunikasiyaların açılması nəticəsində Ermənistanın ticarət dövriyyəsində Türkiyənin payı 3 faizdən 13 faizə, Azərbaycanın payı isə ilk dövrdə minimumdan 1 faizə qədər arta bilər. Eyni zamanda regionda kommunikasiyaların açılması Azərbaycanın ixracını 1,2 milyard manat, qeyri-neft ÜDM-i 2 faiz, emal sənayesini 3 faiz və mədən sənayesini 2,7 faiz artıra bilər. Ümumi tarazlıq modeli əsasında hesablamalarımız göstərir ki, Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyası isə orta müddətli dönəmdə kənd təsərrüfatında 10,4 faiz, turizmdə 5,5 faiz, mədənçıxarma sənayesində 5,3 faiz, nəqliyyat xidmətlərində 4,9 faiz, emal sənayesində 4,3 faiz və digər xidmətlərdə 1,4 faiz, bütövlükdə qeyri-neft ÜDM-in formalaşmasında 5,1 faiz müsbət təsirə malik olacaq”.

V.Qasımlının sözlərinə görə, Ermənistan iki istiqamətdə Azərbaycanın nəqliyyat imkanlarından istifadə etməklə, öz ticarət dövriyyəsinin 25-30 faizini təşkil edən Rusiya ilə əlaqə yarada bilər: Gümrü-Naxçıvan-Meğri-Bakı və İcevan-Qazax-Bakı. Nəzərə alsaq ki, Qarsdan Gümrüyə də dəmiryolu xətti mümkündür, bütövlükdə xarici mənbələrin hesablamalarına görə, Qars-Gümrü-Naxçıvan-Meğri-Bakı üçün təxmini 434 milyon ABŞ dolları xərc tələb edilir və dəmir yol layihəsi illik 10 milyon ton yük daşımaqla fəaliyyətinin 13-cü ilində mənfəət gətirə bilər. Bununla yanaşı, Türkiyədə Qarsdan Naxçıvana və Naxçıvandan Mehri dəhlizi üzərindən Zəngilana planlaşdırılan dəmiryolu xətti daha böyük strateji əhəmiyyət kəsb etməklə yuxarıdakı layihəni tamamlayır. Beləliklə, Azərbaycan və Türkiyənin dəmiryolu xətlərinin inteqrasiyasına Ermənistanın qoşulmaq imkanları rəsmi Yerevanın nə qədər rasional siyasət yürütməsindən asılı olacaqdır. Ermənistan təkcə Türkiyə üzərindən Aralıq və Qara dəniz limanlarına deyil, həm də Azərbaycan üzərindən Culfa vasitəsilə İranla əlaqələr qurmaq şanslarını da qiymətləndirməlidir. Çünki çətin coğrafi şəraitdə Ermənistan-İran dəmir yol layihəsinin tikintisi üçün 2-3 milyard ABŞ dolları vəsait yatırmağa heç bir investor razı deyil. Cənubi Qafqazda kommunikasiyaların açılması İranın Bəndər-Abbas yük limanı vasitəsilə İran körfəzi və Oman körfəzinə və Hind okeanına çıxış, İstanbul-İslamabad qatar xəttinə qoşulma imkanı yaradır”.

V.Qasımlı hesab edir ki, Qars-Naxçıvan-Meqri-Zəngilan-Bakı dəmiryolu xətti Naxçıvanın blokadadan çıxarılması, nəqliyyat xərclərinin azalması, ətraf mühitə təsirlərin azaldılması, xarici ticarət imkanlarının artması, turizmin və sərnişin dövriyyəsinin yüksəlməsi və regiona sərmayə cəlbi baxımından əhəmiyyətlidir: “Faktiki olaraq Azərbaycan Aralıq dənizi hövzəsi ilə Xəzər hövzəsinin Böyük İpək yolu və Şimal-Cənub dəhlizi üzrə daha bir inteqrasiyasına rəvac verir. Orta Asiya və Avropa, Türkiyə və Rusiya, İran və Avropa, Türkiyə və Orta Asiya arasında yeni nəqliyyat imkanları yaranır”.

V.Qasımlı bildirib ki, vaxtilə Avropa Birliyi də kömür və polad üzrə sazişin üzərində qurulub: “Regionumuzda Azərbaycanın yaratdığı yeni reallığa uyğun olaraq kommunikasiyaların açılması sülhün, təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoyur ki, bu da sərmayələrin cəlbi və davamlı inkişaf deməkdir. İndi dizayn verilən kommunikasiya layihələri regionun gələcək nəqliyyat və enerji xəritəsini, bütövlükdə iqtisadi, siyasi və strateji arxitekturasını şəkilləndirəcək”.

# Azərbaycan dünyada ən uğurlu gənc dövlət kimi qəbul olunub

***“Yola saldığımız 2020-ci ildə Azərbaycan dövləti bir sıra möhtəşəm uğurlara imza atdı. Ölkə başçısının yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu və tarixi ədalət bərpa olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş, videoformatda keçirilən müşavirədə bununla bağlı səsləndirilən fikirlər bu və ya digər sahələrdə ölkəmizin bir-birindən əhəmiyyətli və ciddi uğurlar qazanmasının təsdiqidir.”***

Bu fikirləri İkisahil.TV-yə müsahibəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib.

Musa Quliyev vurğulayıb ki, Vətən müharibəsində dövlətimizin şanlı Qələbəsini şərtləndirən bir sıra mühüm amillər var. Belə ki, son 17 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdu. Təbii ki, bu məsələdə dövlətimizin başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Eyni zamanda, 44 günlük müharibə günlərində dünyanın nüfuzlu KİV-lərinə müsahibələr verən Prezident İlham Əliyev həm işğalçı Ermənistanın, həm də bu ölkənin xarici havadarlarının əməllərini bütün dünyaya bir daha çatdırdı. Digər vacib bir məqam isə ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar hesabına Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması üçün ötən 17 ildə atılan davamlı addımlarla bağlıdır. Bu illərdə Azərbaycan münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində məqsədyönlü iş aparıb. Həyata keçirilən islahatlar respublikamızı güclü iqtisadi dayaqlara malik ölkəyə çevirib. Dövlətimizin başçısı İlham Əliyevin həyata



keçirdiyi siyasətin strateji hədəfinin güclü Azərbaycan dövlətinin formalaşdırılması, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, müasir iqtisadi, sosial və mədəni infrastrukturun yaradılması, əhalinin sosial rifahının təmin edilməsi, sosial dövlət konsepsiyasının inkişaf etdirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmləndirilməsi, güclü və müasir ordunun yaradılması, ümumiyyətlə, bu məqsədlərə çataraq yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli olduğunu görürük. Cənab İlham Əliyevin islahatlar kursu ölkəmizin hərtərəfli inkişafını təmin etdi, ən əsası “Azərbaycan 2020: gələcəyə baxış”” İnkişaf Konsepsiyasına uyğun olaraq Azərbaycanın inkişaf etmiş ölkələr sırasında addımlamaq istəyini reallığa çevirdi. Azərbaycan Prezidenti hər zaman bildirirdi ki, biz heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik. Beləliklə də şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarını işğaldan azad etdi. Cənab Prezident İlham Əliyevin bütün fəaliyyəti bu Qələbəyə hədəflənmişdi.

Milli Məclisin komitə sədri bildirib ki, ölkə başçısının vurğuladığı kimi, pandemiya dövründə iqtisadi inkişaf 4 faizdən bir qədər çox azalsa da, qeyri-neft sənayesinin iqtisadi göstəriciləri 11 faizdən çox artıb. Kənd təsərrüfatının inkişafında, əməkhaqlarında və pensiyalarda artım müşahidə olunub. Dövlət Neft Fondunun vəsaitləri azalmayıb, əksinə artıb. Bununla da Azərbaycan öz valyuta ehtiyatlarını qoruyub saxlayıb. Dünya Bankının yeni reytinqinə görə, “Doing Business” proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdə qərarlaşıb. Beynəlxalq qurumlar Azərbaycanda gedən işlərə yüksək qiymət verirlər.

Davos İqtisadi Forumunun hesabatlarından söz açan deputat bildirib ki, əhalinin elektrik təchizatına görə dünya miqyasında Azərbaycanın ikinci yerdə olması və ümumiyyətlə, 10 ən islahatçı ölkə arasında yer tutması, nəticə etibarilə Azərbaycanın dünyada ən uğurlu gənc dövlət kimi qəbul olunması, ölkəmizin parlaq gələcəyinə olan inam beynəlxalq aləmdə bizə çoxlu dostlar qazandırıb. Ölkəmizin mövqeyinin güclənməsi, bir çox beynəlxalq reytinqlərdə ən mötəbər yerlərdə mövqe tutması vətəndaşlarımızın qürur mənbəyinə çevrilib.

M.Quliyev xüsusi olaraq qeyd edib ki, ərazilərimizin işğaldan azad edilməsi həmin torpaqlara böyük qayıdışın və nəhəng quruculuq işlərinin başlanmasını zəruri edib. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, indi Qarabağda infrastruktur layihələrinin icrasına start verilib və onların bir neçəsi artıq icradadır. Bərpa və infrastruktur layihə işləri başlanıb. Dövlət başçımızın vurğuladığı kimi, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və bu, bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır və planlarımız gerçəkləşir. Ölkəmizin qarşıya qoyulan hədəflərə doğru inamla irəliləməsi onu göstərir ki, Azərbaycan 2021-ci ildə də uğurla inkişaf edəcək, daha qüdrətli dövlətə çevriləcək.

Müsahibimiz əlavə edib ki, insanların güzəranı ilbəil daha da yaxşılaşır, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır. 2020-ci il bütün dünyada koronavirus pandemiyası ilə müşayiət olundu. Pandemiyanın iqtisadi, sosial, tibbi cəhətdən zərərləri olub. Dünya iqtisadiyyatında artıq bu zərərlər özünü göstərməkdədir. Təəssüf ki, dünyada baş verən böhran Azərbaycanda da özünü az da olsa hiss etdirməkdədir. Lakin Azərbaycan Prezidentinin apardığı balanslaşdırılmış sosial-iqtisadi siyasət nəticəsində vətəndaşlarımız gündəlik həyatlarında bu böhranın ciddi nəticələrini görmürlər. Son illər ərzində çoxşaxəli inkişaf edən Azərbaycan dövləti özünün qüdrətli və şanlı dövrünü yaşayır. Dövlət başçımızın qeyd etdiyi kimi, Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bütün dünya üçün ciddi sınaq olan koronavirus pandemiyasından Azərbaycan şərəflə çıxmaqdadır, vəziyyət dövlətimizin nəzarəti altındadır. Operativ tədbirlər nəticəsində yeni xəstəxanaların tikilməsi, laboratoriyaların alınması, mübarizə tədbirlərinə cəlb edilən həkimlərin maaşının onların əməkhaqlarının 3-5 misli həcmində qaldırılması və koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən günəmuzd çalışan və işsiz vətəndaşlara yardım göstərilməsi dövlətimizin pandemiyanın fəsadların aradan qaldırılmasına həssas yanaşmasını göstərir. Azərbaycan Prezidenti çıxışında ümid etdiyini bildirdi ki, koronavirusa qarşı peyvənd bu ay ərzində Azərbaycana gətiriləcək. Peyvənd gətirildikdən sonra vətəndaşlarımızın kütləvi qaydada peyvənddən istifadə etməsi bu xəstəlikdən qurtulmağımıza yardımçı olacaq.

M.Quliyev sonda qeyd edib ki, illik hesabat müşavirəsində Azərbaycan Prezidenti tərəfindən səsləndirilən daha bir xoş xəbər Cənub Qaz Dəhlizinin tam istismara verilməsi ilə bağlı oldu. İlin sonunda, dekabrın 31-də alınan məlumata görə, Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP artıq istismara verilib. Azərbaycan qazı Avropa məkanındadır. Dövlət başçımızın dediyi kimi, bu, bizim tarixi nailiyyətimizdir.

***Şəmsiyyə Əliqızı***

# Sevinc Fətəliyeva: Moskva görüşünün nəticələri Azərbaycanın maraqlarına cavab verir

***“Ötən il 44 gün davam edən Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri düşmənə sarsıdıcı zərbələr endirdi və işğalçı Ermənistanı məğlubiyyətə uğratdı.***

Öz məğlubiyyətini etiraf edən Ermənistan noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanata imza atmaq məcburiyyətində qaldı və bu sənədə əsasən üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz respublikamıza təhvil verdi. Yanvarın 11-də isə Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşün məqsədi 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağa dair imzalanmış üçtərəfli bəyanatın reallaşdırılmasının gedişini, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımları birlikdə müzakirə etmək olub”. Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, 10 noyabr üçtərəfli bəyanatının vi-



deoformat şəklində imzalandığını və bununla bağlı təmasların telefon danışıqları ilə baş tutduğunu nəzərə alsaq, bu, Vətən Müharibəsində Azərbaycanın tarixi zəfəri və Ermənistanın hərbi kapitulyasiyasından sonra üç ölkə liderinin ilk birbaşa danışıqları idi. Onun sözlərinə görə, Azərbaycan Rusiyanın tərəfdaşlıq və mehriban qonşuluq jestlərini qiymətləndirərək görüşdə iştiraka razılıq verib. Ermənistan müxalifəti və Rusiyadakı erməni lobbisi isə görüşün pozulmasına çalışır, Paşinyanı görüşə gəlməməyə çağırırdı. Paşinyan hökuməti də erməni cəmiyyətinin itmiş nüfuzunu bərpa etmək üçün Moskva danışıqlarında maksimum nəticə əldə etmək, bu, mümkün olmadıqda danışıqları pozmaq istəyirdi. Amma onlar öz məqsədlərinə nail olmadılar.

Millət vəkili qeyd edib ki, görüşün yekunu olaraq bölgədəki vəziyyətin inkişafına dair imzalanmış birgə bəyanatda tərəflər 10 noyabr bəyanatının regiondakı bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını nəzərdə tutan 9-cu bəndinin həyata keçirilməsinə dair üçtərəfli işçi qrupun yaradılması barədə razılıq əldə ediblər. Azərbaycan, Ermənistan və Rusiyanın baş nazir müavinlərinin rəhbərlik edəcəyi işçi qrup yanvarın 30-dək ilk iclasını keçirəcək, fəaliyyət istiqamətləri üzrə ekspert alt qrupları yaradacaqlar.

“İmzalanan bəyanatdan da görünür ki, görüş Azərbaycanın maraqları çərçivəsindən kənara çıxmayıb. Azərbaycan hərb meydanında olduğu kimi diplomatik arenada da, müzakirələrdə də üstün mövqedədir və bu qalibiyyəti güzəştə getmək niyyəti yoxdur. Prezident İlham Əliyevin görüşdən sonra verdiyi bəyanatda qeyd etdiyi kimi, kommunikasiyaların bərpası Azərbaycan, Ermənistan, Rusiya və digər region dövlətlərinin maraqlarına cavab verir. Beynəlxalq kommunikasiyaların bərpası regionun inkişafında dinamizm yaratmaqla bərabər, həm də etibarlı təhlükəsizliyə xidmət edəcək. Beləliklə, Azərbaycan tərəfi qapalı görüşdə istədiyinə nail olub. Ortaq bəyanatın mətni - humanitar və kommunikasiya məsələləri ilə bağlı üçtərəfli işçi qrupunun yaradılması da bunu təsdiqləyir. əgər Bakının şərtləri qəbul ediləsəydi, üçtərəfli əməkdaşlıq formatı olmayacaqdı”, deyən, deputat söyləyib ki, Azərbaycan tərəfinin görüşdən əvvəl irəli sürdüyü və yeni bəyanatla təsbit olunmuş tələblər regional sabitliyi və təhlükəsizliyi möhkəmlətməyə xidmət edir. Bu, faktiki olaraq “Mehri dəhlizi” - Naxçıvana, daha sonra Türkiyəyə dəmir yolunun açılması üzrə işlərin başlaması deməkdir. Açılacaq kommunikasiya xətləri “Şərq-Qərb” nəqliyyat dəhlizinin tərkib hissəi olacaq. Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası ilə, həmçinin Türkiyə ilə əlaqələri güclənəcək, ölkəmizin geoiqtsadi əhəmiyyəti artacaq.

# Misir portalı ICESCO-nun Baş direktorunun Azərbaycana səfərindən yazır




Misirin “Aldiölomasy” informasiya portalı Azərbaycanın təhsil naziri Emin Əmrullayevin İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü haqqında AZƏRTAC-ın xəbərini yayıb.

Xəbərdə qeyd olunub ki, görüşdə Azərbaycan ilə ICESCO arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin vətəndaşları üçün təsis edilən təhsil qrantı çərçivəsində ümumilikdə 51 nəfərin ölkəmizin ali təhsil müəssisələrində təhsil almaq hüququnu qazanması, həmçinin ötən ilin 27 sentyabr tarixindən etibarən 6 həftədən artıq davam etmiş Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 10 şagirdin həlak olduğu, 16 şagirdin yaralandığı, 54 təhsil müəssisəsinin isə müxtəlif dərəcəli dağıntılara məruz qaldığı qonaqların diqqətinə çatdırılıb.

# “Prezident İlham Əliyev nə deyirsə, necə deyirsə elə də olacaq”

*Müsahibimiz ADMP sədri, millət vəkili Elşən Musayevdir*

***- Elşən müəllim, Moskvada keçirilən üçtərəfli görüşü necə şərhedərdiniz?***

- Azərbaycan və Rusiya Prezidentlərinin, eyni zamanda, Ermənistanın baş nazirinin birgə görüşü əslində bir çox mətləblərə aydınlıq gətirmək üçün labüd idi və ona görə də, reallaşdı. Görüşün nəticəvi hissəsini özündə əks etdirən bəyənatdan da aydın şəkildə görünür ki, Azərbaycan yenə də, diktə edən tərəfdir və bundan sonrakı mərhələli müzakirə predmeti və ya predmetləri özündə əsasən 10 noyabr sənədində nəzərdə tutulan müddəaların həyata keçirilməsini ehtiva edəcək. Həmin predmetlərin arasında isə Azərbaycanın əsas ərazisi ilə Naxçıvanı birləşdirəcək koridorun təmin edilməsi də daxil çox vacib məsələlər, detallar yer alır. Azərbaycan Ermənistanla müharibədə açıq üstünlüklə qalib gəlib, öz əzəli torpaqlarını geri qaytarıb. İndi artıq masada başqa şərtlər var və bir daha deyirəm: həmin şərtləri də məhz Azərbaycan diktə edir. Cənab Prezident də açıq formada bildirib ki, artıq Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur, bu anlayış keçmişdə qalıb və biz gələcək haqqında düşünməliyik. Həqiqətən də belədir. Qalib bizik. Regionda əsas fiqurlardan, söz sahiblərindən biri Azərbaycandır. Dağlıq Qarabağ bizimdir. Qarabağ Azərbaycandır. Ən əsas məsələ isə budur ki, məlum üstün durumu, vəziyyəti Azərbaycan öz gücünə yaratdı. Hətta BMT-nin qətnamələrini də özü icra etdi. Nəhayətində isə Ermənistan məğlub oldu, kapitulyasiya aktını imzaladı. Bundan sonrakı proseslərdə və mərhələlərdə də Azərbaycan daim qalib olacaq.



***- Üçtərəfli görüşdən sonar, mətbuat verilən açıqlamada Paşinyan yenədə statusdan və Hadruta köçürülmədən danışdı, Bunə sərsəmləmədir?***

- Şəxsən mənə Paşinyanın nə deməyi qətiyyən maraqlı deyil. Mən o görüşdə əsasən dəyərli Prezidentim İlham Əliyevi izlədim və onun da hər kəlməsində qətiyyət, prinsipiallıq gördüm.

***- Paşinyan Hadrut ətrafında təxribat törədbiş 62 erməninin qaytarılmasını teklif olaraq irəli sürən zaman cənab Prezident onların qaytarılmayacağını və status məsələsinin heç zaman müzakirə mövzusu olmayacağını bəyan edib. Bu bir daha Azərbaycan Prezidentinin Qarabağın probleminin Azərbaycanın diplomatik siyasəti ilə öz həllini tapacağını bir nöqtə olduğunu demək olar?***

- Hadrut ətrafında təxribat törədən erməni caniləri hərbi əsir deyil, cinayətkardır. Cinayətkar olduqları üçün də qanun qarşısında cavab verəcəklər. Çünki belə cinayətkarlara hərbi əsir statusu şamil olunsa onlar gələcəkdə də min cür yeni-yeni təxribatlar həyata keçirə bilərlər. Üstəlik, hərbi əsirlərlə, müharibə dövründə və sonradan törədilən cinayətlərlə bağlı bütün nüanslar aydın bir formada Beynəlxalq hüquqda ayırd edilib. Yəni, nəyin sanksiyası nədir, fərqi nədir və sair, ilaxır. Ona görə də, həmin təxribatçıların hərbi əsir formasında geri qaytarılmasından qətiyyən söhbət gedə bilməz. Eyni zamanda, xüsusi vurğulamaq lazımdır ki, məlum məsələ müzakirə olunan zaman Azərbaycan Prezidenti İlham Əliyev öz qətiyyətli mövqeyini növbəti dəfə ortalığa qoydu və Paşinyanı pərişan etdi. O ki, qala status məsələsinə, bu barədə düşüncəm ondan ibarətdir ki, məsələ ilə bağlı cənab Prezident İlham Əliyev nə deyirsə, necə deyirsə elə də olacaq. Buna hər kəs əmin olsun. Çünki hazırda diktə edən tərəf Azərbaycandır. Məhz Azərbaycandır!

*Gülyana*

# ICESCO-nun nümayəndə heyəti işğaldan azad edilmiş Füzuli rayonunda olub



***İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri çərçivəsində Füzuli rayonunda olub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, ICESCO-nun nümayəndə heyəti əvvəlcə Füzuli şəhərinin xarabalıqlarına baxıb, şəhər qəbiristanlığında erməni vandalizminin izlərini görüblər. Ermənilər burada mərmərdən olan məzar daşlarını söküb aparıb, bəzi qəbirləri qarət məqsədilə dağıdıblar.***

Şəhərdəki dağıdılmış Cümə məscidinin qalıqlarına baxış zamanı aydın olub ki, ermənilər digər məscidlərimizdə olduğu kimi, burada da mal-qara və donuz saxlayıblar. Nümayəndə heyətinin üzvləri İslam dini abidələrinin bu cür təhqir olunmasının, dağıdılmasının insanlıqla bir araya sığmadığını bildiriblər.

ICESCO-nun nümayəndə heyəti rayonun Qarğabazarı kəndində qədim karvansaraya və XVII əsrə aid məscidin qalıqlarına, həmçinin Qoçəhmədli kəndinin yerlə-yeksan edilmiş məscid binasının xarabalıqlarına da baxıb, ermənilərin törətdikləri vəhşiliklərin bilavasitə şahidi olublar.

Nümayəndə heyətinin işğaldan azad olunmuş ərazilərə səfəri davam edir. Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Azərbaycanın ICESCO yanında daimi nümayəndəsi Oqtay Qurbanov, ölkəmizin ICESCO üzrə milli komissiyasının baş katibi, Mədəniyyət Nazirliyinin administrasiya rəhbəri Vasif Eyvazzadə və xarici ölkələr üzrə əməkdaşlıq şöbəsinin müdiri İsa Məmmədov müşayiət edirlər.

# Azərbaycanda koronavirus infeksiyasından 1276 nəfər sağalıb, 519 yeni yoluxma faktı qeydə alınıb

***Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1276 nəfər müalicə olunaraq sağalıb, 519 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 15 nəfər vəfat edib.***




Hazırkı dövrədək ölkəmizdə 225 min 346 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 210 min 798 nəfər müalicə olunaraq sağalıb, 2941 nəfər vəfat edib. Aktiv xəstə sayı 11607 nəfərdir. Ötən müddət ərzində 2 milyon 279 min 907 test aparılıb. Bugünkü test sayı isə 7898-dir.

# Baş infeksionist: Vaksinasiya ilk mərhələdə risk qrupuna daxil olanlar arasında aparılacaq



***Artıq dünyanın bir sıra ölkəsində yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinasiya tədbirlərinə başlanılıb. Həmin tədbirin yaxın zamanda Azərbaycanda da tətbiq olunacağı gözlənilir. Əksər ölkələrdə vaksinasiyanın birinci mərhələsinə risk qrupuna daxil olanlar cəlb olunub.***

AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazovun verdiyi məlumata görə, ölkəmizdə də ilk mərhələdə risk qrupunda olanlara peyvənd vurulacaq: “Risk qruplarını hər bir ölkə özü müəyyən edir. Bunlar, ilk növbədə, əsasən tibb işçiləri, yaşı 65-dən yuxarı olanlar və bir də uzun müddət xroniki xəstəliklərdən əziyyət çəkənlərdir. Vaksinasiyanın epidemik prosesin qırılmasına təsiri onun kütləvi olduğu halda mümkündür. Ümumdünya Səhiyyə Təşkilatının əvvəlki təcrübəsi göstərir ki, vaksinasiyanın məcburi edilməsi neqativ reaksiyalara səbəb olub. Ona görə də onun könüllülük prinsipi əsasında aparılması daha düzgün yoldur”.

Onun dediyinə görə, xroniki xəstəlikləri olanların vaksinasiyadan imtina etməsi hər zaman yoluxma riski ilə üz-üzə qalması deməkdir: “Bunlara xroniki ürəkdamar, tənəffüs sisteminin, endokrin sistemi xəstəliklərindən əziyyət çəkənlər və immun çatışmazlığı olanlar aiddir. Onlar yoluxduqları halda xəstəliyin ağırlaşmasının risk qrupundadırlar, bu zaman fəsadlaşma və ölüm halları da baş verə bilər”.

Vaksinlər öldürülmüş və zəifledilmiş mikroorqanizmləri, yaxud onların ifraz etdiyi bəzi antigen maddələrdir. Vaksinasiyanın aparılmasının məqsədi əhali arasında kollektiv immunitetin yaranmasına nail olmaqdır. İstər təbii, istərsə də vaksinasiya vasitəsilə yaranan immunitet əhalinin çox hissəsini təşkil edərsə, epidemik proses tez bir vaxtda başa çata bilər.

# “Üçtərəfli Moskva Bəyanatı Azərbaycanın milli maraqlarına cavab verir”

***“11 yanvar 2021-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar. Bu Bəyanat 2020-ci ilin 10 noyab tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədi ilə qəbul edilib”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.***

Deputat bildirib ki, bəyanatla Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli işçi qrupunun yaradılması nəzərdə tutulub: “İşçi qrupu 2021-ci ilin martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən keçən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərindən keçməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpası və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqlənməsi üçün təqdim edilməsi nəzərdə tutulur. Bu Bəyanatın qəbul edilməsi Azərbaycanın milli maraqlarına cavab verir. Bu Bəyanat 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatın yerinə yetirilməsi istiqamətində növbəti addımdır. Hərbi əməliyyatlarının dayandırılmasının yekunlarına dair bəyanatın 9-cu bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aiddir. Nəqliyyat kommunikasiyalarının açılması Azərbaycanın, Ermənistanın, Rusiya Federasiyasının eləcə də qonşu Türkiyə, İran və digər region ölkələrinin mənafeyinə uyğundur”.



R.Əliyev bir məsələyə də toxunub: “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Moskvada keçirilən üçtərəfli görüşdən sonra mətbuata bəyanatında qeyd edib ki, 10 noyabr tarixli birgə Bəyanatın bəndlərinin çox hissəsi yerinə yetirilib. “Rusiya sülhməramlı missiyası öz işini səmərəli şəkildə yerinə yetirir və iki ay ərzində kiçik insidentlər istisna olmaqla narahatçılıq üçün ciddi əsas olmayıb. Bütün bunlar belə əminlik yaradır ki, Vladimir Vladimiroviçin dediyi kimi Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmləndirmək haqqında düşünməliyik””.

# Qarabağın tarixi qayıdışı

*"Qarabağ Dirçəliş Fondu"nun yaradılması bu reallığın təsdiqidir*



***Bu gün işğaldan azad olunan bütün ərazilərimizdə yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi ən ümdə prioritet kimi qəbul edilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Tezliklə bütün Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq".***

Bəli, 30 il həsrətində qaldığımız tarixi dədə-baba torpağımızın - Qarabağlımızın əvvəlkindən də daha gözəl bir diyara çevriləcəyi elə ilk qələbələrimizdən başlanıldı. Bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, ərazilər işğaldan azad olunduqca ermənilərin bizim torpaqlarda talançılıq və dağıdıcılıqla məşğul olması da bir daha dünyaya sübut olundu. Qarabağın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatının genişlənməsinə və diversifikasiyasına töhfə olacaq. Çünki dövlətimizin başçısı dediyi kimi - "Qarabağ Azərbaycandır!".

İşğaldan azad edilən ərazilərimizdə artıq yeni infrastrukturun qurulmasına başlanılması onu göstərir ki, tarixi və əzəli torpaqlarımıza yenidən nəfəs gəlir, Talış və Suqovuşan kəndlərinə, Şuşa şəhərinə yeni avtomobil yollarının çəkilməsi böyük qayıdışın artıq başladığının əlamətlərindən biridir. 2021-ci il yanvarın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərmanı Qarabağın tarixi qayıdışıdır. Qeyd edək ki, bu Fərman ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin, 30 ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılmasının, ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq. Həmçinin ən əsası isə, bu sənəd işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacağını təsdiq edir.

### Qarabağ Azərbaycandır! - Dəmir yumruğun 44 gündə qələbəsi

Bəli, illər sonra Azərbaycanın Müzəffər Ordusu düşmənin başına dəmir yumruğunu endirərək Qarabağı işğalçılardan təmizlədi. 30 illik münaqişə 44 gündə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Qeyd edək ki, torpaqlarımız azad olduqca müharibə getməsinə baxmayaraq işğaldan azad olunan torpaqlarımızda abadlıq işləri aparılır. Bəli, 17 illik hakimiyyəti dövründə Prezident, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev dediyini etdi, Qarabağı Azərbaycana qaytardı. Azad olunmuş ərazilərə səfərləri zamanı Prezident bildirib ki, tezliklə bu torpaqlarda yeni şəhər və qəsəbələrin, infrastrukturların, sosial obyektlərin və müxtəlif müəssisələrin açılışlarını edəcək. Bu baxımdan da Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqlarımızın inkişafı ilə bağlı imzaladığı Fərman və Sərəncamları, o cümlədən "Qarabağ Dirçəliş Fondu" 30 il həsrətində olduğumuz torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsində, Qarabağa layiqli həyatın qaytarılmasında mühüm rol oynayacaq və tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədinə mühüm töhfə olacaq.

### "Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik"

Dövlət başçımızın dediyi kimi, biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq: "Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik".

Bəli, Ermənistanı diz çökdürən qalib Azərbaycan işğaldan azad olunmuş bütün şəhər və rayonlarını, kənd və qəsəbələrini yenidən quracaq. Ermənistan isə tarixi boyu Azərbaycanın dəmir yumruğunun ağrısını başında hiss edəcək. Göründüyü kimi, Prezident İlham Əliyev tarixi ədaləti dəmir yumruqla bərpa etdi. Bu gün Vətən müharibəsi zamanı işğalçı Ermənistan tərəfindən mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün bütün qüvvələr səfərbərliyə alınıb. Tezliklə dəymiş hər bir zərər aradan qaldırılacaq, evlər və infrastruktur bərpa olunacaq, həyat tamamilə öz məcrasına qayıdacaq. Bu istiqamətdə imzalanan sərəncamlar bir daha göstərir ki, Prezident İlham Əliyev hər zaman öz vətəndaşının yanındadır.

Bir sözlə, bu gün artıq Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Bəli, sentyabrın 27-də Ermənistanın törətdiyi təxribata atekvat cavabı olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edil keçirilən çoxsahəli, çoxşaxəli və davamlı islahatlar istər Dünya Bankı, istərsə də digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən izlənilir və qiymətləndirilir. Bütün bunlar Azərbaycanın dünyanın sayılıb-seçilən ölkələrindən olduğunu bir daha təsdiqlədi ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

*RƏFİQƏ KAMALQIZI*

# Əsirlikdə olmuş Yəhya: "İynəni damarıma 40 dəfə salıb-çıxarırdılar"

***"Ermənilər məni əsir götürdükdən sonra işgəncə verir, yarama barmaq basır, döyürdülər. Məndən məlumat almaq istəyirdilər. Lakin mən hərbçi deyildim, döyüşlərə könüllü qatılmışdım və heç bir məlumatım yox idi".***

"İki sahil" xəbər verir ki, bunu azvisiona açıqlamasında 35 gün erməni əsirliyində qalan hərbi qulluqçu Yəhya Abdinov deyib. O, müharibə vaxtı ailəsi ilə sonuncu dəfə noyabrın 2-də əlaqə saxladığını bildirib.



"Noyabrın 9-da Xocavənd istiqamətində qızğın döyüşlər zamanı snayperlə ayağımdan yaralandım. Həmin döyüşdə yaralı və şəhidləri ölü oldu. Məni çıxarmaq mümkün olmadı. Qanaxmadan huşumu itirmişdim. Özümə gələndə artıq ermənilər yanımda idi və məni əsir götürdülər. Xankəndiyə apardılar, sorğu-sual edildim. İşgəncə edərək məlumat almaq istəyirdilər. Məndə onlara lazım olan cavablar yox idi, çünki hərbçi deyildim, könüllü döyüşlərə qoşulmuşdum. Orada heç bir gün qalmadım, sonra məni Ermənistana apardılar. Ayılanda artıq reanimasiyada idim, əməliyyat etmişdilər. Lakin tam əməliyyat etməmişdilər. Yaram pis idi, hər gün gəlib yaranın içərisindən qırıq sümük çıxarıb, işgəncə edirdilər. Sistem vuranda damarıma 40 dəfə yalandan iynə salıb çıxarırdılar, guya damarı tapa bilmirdilər. Yeməyimizi kəsirdilər, bir şey istəyəndə vururdular. Digər əsirləri görə bilmirdim, çünki bizi ayrı-ayrı otaqlarda saxlayırdılar".

Y.Abdinovun sözlərinə görə, dekabrın əvvəlində Beynəlxalq Qızıl Xaç Komitəsindən gəlib onlarla maraqlanıblar. "Onlar gələndən 10 gün sonra bizi Bakıya qaytardılar. Bakıya gəldiyimizi bilmirdik. Təyyarədə olanda bildik. Bizim müharibənin bitməsi barədə xəbərimiz olmayıb. Paşinyana qarşı etirazları eşidirdik, lakin bilmirdik ki, nə olub. Bakıya gələndən sonra öyrəndik ki, qələbə qazanmışıq. Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə təşəkkür edirəm ki, bizi əsirlikdən xilas etdi. Dövlətimizin qayğısı nəticəsində bizi yenidən müayinə etdilər. Ermənilər ayağımı səhv əməliyyat etmişdi, sümük əyri bitirdi, burada həkimlərimiz yenidən əməliyyat etdi, ayağımı düzəltdilər və mil qoydular. İndi səhhətim yaxşıdır. Hələ yeriyə bilmirəm, lakin irəliləyiş var".

21 yaşlı Yəhya Abdinov 44 günlük Vətən müharibəsində düşmənə qarşı döyüşlərdə fəal iştirak edib. O, ermənilərin iyul ayında törətdiyi təxribatdan sonra könüllü olaraq ordu sıralarına yazılıb.

"Sentyabrın 28-də səfərbərlikdən çağırış gəldi və sentyabrın 30-da Ağcabədiyə aparıldıq. Sonra Füzuli istiqamətində döyüşlərə başladıq. Piyada quru qoşunlarında idim, bizim vəzifəmiz erməni postlarını almaq idi. Postları alaala irəliləyirdik. Ermənilər 30 il ərzində orada güclü postlar qurmuşdular. Lakin biz onları məhv etdik və torpaqlarımızı düşmən işğalından azad etdik. Düşmən döyüşlərdə daha çox iriçaplı silahlardan istifadə edirdi, biz də əks cavabları lazımi qədər verirdik. Azad etdiyimiz postlara ermənilər sonradan əks hücumlara keçirdilər. Lakin biz o postlarda güclənirdik və ermənilərin hücumlarını dəf edirdik.

Noyabrın əvvəli artıq Xocavənd rayonuna daxil olmuşduq, 9-10 gün olardı döyüşürdük. Rayon demək olar kı alınmışdı və Xankəndi istiqamətində irəliləyirdik. Lakin noyabrın 9-u qızğın döyüşdə ayağımdan snayper gülləsi ilə yaralandım və əsir götürüldüm".

Vətən uğrunda döyüşməyin qürurverici olduğunu deyən Yəhya şəhidlərimizin, Xocalı faciəsinin qisasını aldıqlarını qeyd edib: "Bu döyüşlər olmalıydı, oldu da. Döyüşün başlanmasına sevinirdik və inanırdıq ki, qalib olacağıq. Torpaqlarımız geri qaytarıldı. Döyüşlər zamanı irəlilədikcə, torpağımızı azad etdikcə daha da sevinirdik. 2-3 gün əvvəl erməndə olan post bizdə olurdu. Bu, gözəl duyğudur. Döyüşlərdə olduğum Füzuli, Xocavənddə erməni vəhşiliklərinin izləri var idi. Hər yer dağınıq idi, sökülmüşdü. İnşallah ayağa qalxandan sonra Qarabağa getməyi, oranın hər qarışını gəzmək istəyirəm".

# Qorxunc açıqlama: Son 30 ildə 420 milyon hektar meşə sahəsi itirilib!

***Son otuz ildə Yer kürəsində təxminən 420 milyon hektar meşə sahəsi itirilib. AZƏRTAC BTN-nin xəbərlər xidmətinə istinadla bildirir ki, planetin bütün yerüstü biomüxtəlifliyinin əsas hissəsi: 60 min müxtəlif bitki və ağac növü, bütün suda-quruda yaşayanların 80 faizi, quş növlərinin 75 faizi və məməlilərin 68 faizi məhz meşələrin payına düşür. Meşələrin yox olması çoxsaylı vəhşi flora və fauna növlərinin yox olmasına səbəb olur.***

Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, dünya meşələrinin yarıdan çoxu beş ölkənin: Rusiya, Braziliya, Kanada, ABŞ və Çinin payın düşür. Ümumdünya Vəhşi Təbiət Fondunun ekspertlərinin bildirdiyinə görə, Rusiyada 247 milyon hektar ilkin, insan ayağı dəyməmiş meşə var. Amma onların ildə 1,6 milyon hektardan çox yoxa çıxır və bu proses



getdikcə sürətlənir. Rusiya Ümumdünya Vəhşi Təbiət Fondunun direktoru Dmitri Qorşkovun fikrincə, meşələri itirsək, ekosistemi bərpa etmək artıq mümkün olmayacaq, çünki, "biomüxtəliflik, xüsusən də meşələr - planetdə həyatın əsasını təşkil edən mürəkkəb mexanizmdir". D.Qorşkov deyib: "Biz bu mexanizmin işlədiyinə görə yeyib, içir və nəfəs ala bilirik. Oksigen, suyun təmizlənməsi, bitkilərin tozlanması - bunların hamısı böyük bir sistemin tərkib hissəsidir. Burada bütün heyvanların və bitkilərin də xüsusi töhfəsi var".

Meşə ərazilərinin yarısı demək olar ki, xarici təsirdən, insan müdaxiləsindən zərər görməyib. Meşələrin üçdə biri insan ayağı dəyməyən meşələrdir. Lakin buna baxmayaraq, meşələrin yox olması hələ də davam edir və buna görə də planetin yeni əraziləri meşə örtüyündən məhrum olur.

"Meşəsizləşmə prosesinin və biomüxtəlifliyin itirilməsinin qarşısının alınması üçün biz istehsal üsullarımızı və ərzaq istehlakının miqyasını yenidən nəzərdən keçirməliyik", - deyə FAO-nun baş direktoru Qu Dundyu qeyd edib.

Ekspertlər ağacların qoruyucu funksiyaları yerinə yetirdiyini xatırladır: onlar eroziyanın və torpaq itkisinin qarşısını alır və iqlim dəyişikliyinin təsirlərini azaldır. Həm də meşələr insanları yanacaq və ərzaq ilə təmin edir. Bir çoxları üçün isə onlar əhəmiyyətli gəlir mənbəyidir.

Belə ki, bu gün meşələrin payına 86 milyon "yaşıl" iş yeri düşür. Həddindən artıq yoxsulluq içərisində yaşayanların, 90 faizindən çoxu meşədə olan yabanı qidaların hesabına sağ qalır. Təkcə Latın Amerikasında səkkiz milyon yoxsul insanın həyatı meşələrin vəziyyətindən asılıdır. Ermənistan tərəfindən Qarabağ və ətraf ərazilərin 30 ilə yaxın müddət ərzində işğal altında saxlaması Azərbaycan ekologiyasına böyük ziyan vurub. İndi azad edilmiş ərazilərdə meşə fondu 1988-ci ildə 228 min hektar, 2020-ci ildə isə cəmi 174 min hektar təşkil edib. 54 min hektar meşə ehtiyatı isə məhv edilib.

# "Kəşfiyyat ən vacib qərarı verənlərin başındakılara giriş əldə etməyə çalışır"

***Keçmişdə və müasir dünyada kəşfiyyat. 20 dekabrda Rusiya Xarici Kəşfiyyat Xidməti super yubileyini 100 illiyini qeyd etdi. Bu müddət ərzində çox uğurlar və uğursuzluqlar oldu. Bu barədə nə qədər bilirik, niyə bir çox şeyləri heç vaxt öyrənə bilmirik? Bu xidmət mövcud şəraitdə necə işləyir? Niyə kəşfiyyatın əhəmiyyəti artır? Pravda.Ru-ya videomüsahibəsində İnna Novikovanın bu və ya digər suallarını hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko cavablandırıb. Müsahibəni təqdim edirik.***

***- İqor, axı Sovet atom bombasının daha qısa müddətdə yaradılmasında kəşfiyyat zabitlərimiz böyük rol oynadı, elə deyilmi?***

- Bəli, agentlərimiz yaxşı iş gördülər- Filbinin rəhbərlik etdiyi məşhur "Kembric beşliyi". Bu insanlar əvvəl müharibəni qazanmağımıza, sonra da Amerika nüvə bombasının sirrini əldə etməyimizə bir çox cəhətdən kömək etdilər.

Yaponiyadan sonra növbəti atom zərbəsinin qurbanı biz ola bilərdik. Kəşfiyyat olmasaydı, atom bombasını bu qədər qısa müddətdə yaratmazdıq.

Hələ 1930-cu illərin sonlarında elmi və texniki kəşfiyyatımız nüvə reaksiyalarına dair geniş miqyaslı tədqiqatların aparıldığını bildirdi. Sonra Qərbdə Uran Komitəsi yaradıldı. Böyük Britaniyadakı və ABŞ-dakı agentlərimiz hətta imzalı çertyojları bizə təhvil verdilər.

Bu məlumatlar əsasında Kurçatov işi sürətləndirdi. Onun komandası kəşfiyyatımızın əldə etdiyi sənədlər sayəsində konkret nəticələri daha qısa müddətdə əldə edə bildi.

O dövrdə onlar lazımınca qiymətləndirilmədi, amma SSRİ-dən sonra Rusiya dövründə- 90-cı illərdə Amerika nüvə bombasının sirrini ələ keçirən kəşfiyyat zabitləri qrupu (onda hələ sağ idilər) Rusiya Federasiyasının Qəhrəmanı adını aldılar.

Kəşfiyyatın müvəffəq olmasının bir çox nümunəsi var. Mərkəzi Kəşfiyyat İdarəsinin qərargahında dəyərli agentlər əldə etmək üçün uğurlu bir əməliyyat keçirildiyindən xəbərdarıq.



MKİ-nin Sovet şöbəsinin müdiri Oldriç Eyms bizim agentimiz idi, Amerika kəşfiyyatının Sovet İttifaqındakı bütün mənbələrini bizə təhvil verdi- əks kəşfiyyatımızın heç vaxt aşkar edə bilmədiyi 20-dən çox agenti.

Əlbətdə ki, indi belə bir agentin olmaması çox təəssüf doğurur, halbuki rəqiblərimizin agentləri təbii ki, dövlət və hərbi idarəetmə sisteminin ən yüksək səviyyələrindədirlər. Düşmənin ən vacib sirlərini bizə ötürə biləcək mənbələrə ehtiyacımız var.

Oldriç Eyms onsuz da Sovet hakimiyyətinin başlanğıcındakı bir çox Qərb agentlərimiz kimi inancından deyil, pul üçün işləyirdi. Cəmi 2 milyon dollar aldı, amma bu, etdiyi şey üçün çox deyil.

Sonra xainlərdən biri- Qərbə qaçan polkovnik Poteyev onu təslim etdi. Nəticədə Oldriç ömürlük həbs cəzası aldı. Hazırda o Amerika Birləşmiş Ştatlarındakı xüsusilə ciddi rejimli Allenvud həbsxanasında əfv şansı olmadan cəzasını çəkir.

SSRİ-nin dağılmasından sonra, təəssüf ki, gizli şəbəkələrimizi təslim edən bir çox agent ortaya çıxdı. 2000-ci illərin əvvəllərində Amerika Birləşmiş Ştatlarında və bir sıra digər ölkələrdə, hətta rus dilini unutmuş olan, əksəriyyəti kəşfiyyat generalları olaraq düşmənə işləyən görkəmli gizli agentlərimiz təslim oldular.

Lakin kəşfiyyat xidmətinin sərt dünyası belədir. Müasir dünyada kəşfiyyat olmadan dövlət heç bir şəkildə mövcud ola bilməz, buna görə ən kiçik ölkələr də öz kəşfiyyat şəbəkələrini yaratmağa çalışırlar.

Kimin daha uğurlu, kimin uğurlu olmadığını söyləmək çətindir, çünki burada çox şey üzə çıxmır. Daha çox, bəzi hadisələr, əməliyyatlar haqqında yalnız hər hansı bir tərəfin uğursuzluğu və ya aşkar uğuru nəticəsində məlumat əldə edirik.

- Uğurların çoxu haqqında biz hətta biz heç vaxt bilməyəcəyik.

- Bəli, əlbətdə ki, uğurların çoxunu heç vaxt bilməyəcəyik, amma kəşfiyyatın dövlətlərin mövcud olduğu müddətdə olduğunu və olacağını başa düşmək vacibdir.

***- Bilik gücdür. Kəşfiyyat fəaliyyətində əsas budurmu?***

- Əlbəttə ki, əslində bir kəşfiyyatçının işi Ceyms Bond filmlərindən və ya digər məşhur çəkiliş oyunlarından tamamilə fərqlidir.

Kəşfiyyatın əsas vəzifəsi gizli informasiya mənbələrinə, nüfuzlu şəxslərə, internetdə heç vaxt tapa bilməyəcəyiniz dövlət sirrlərinə, "çox gizli" və ya "xüsusi əhəmiyyətə" malik olan sənədlərə girişdir.

Bu bizim qirflənmiş sənəd sistemimizdir. Qərbdə başqa təyinatlar da var, amma məsələ burasındadır ki, bu məlumatlar heç vaxt sızmamalıdır. Və kəşfiyyat, buna görə, məxfi qrifli möhür altında olanlara və ən vacib qərarı verən insanların başında olanlara giriş əldə etməyə çalışır.

Bu gün kəşfiyyatın rolu təkcə bütün sahələrdə beynəlxalq rəqabətin kəskinləşməsi ilə deyil, həm də koronavirus pandemiyasının yeni bioloji təhdidlər mövzusunu gündəmə gətirməsi, beynəlxalq terrorizmlə mübarizə davam etdiyi üçün artır.

(Davamı olacaq)

***Tərcümə: Elçin Bayramlı***

# Mesrop Manukyan: "Ermənistan və erməni xalqı 38,4 milyard dollar ziyana düşdü"

***"Baş nazir Nikol Paşinyan Ermənistan Respublikasına və bütövlükdə, erməni xalqına 38,4 milyard dollar ziyan vurdu". SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri "Hərbi Sığorta Fondu" Qəyyumlar Şurasının üzvü Mesrop Manukyan özünün Facebook səhifəsində Ermənistanda 44 günlük müharibənin vurduğu ziyanı təqdim edərkən yazıb.***



Şura üzvü ölkəsinə dəymiş ziyanı bir-bir sadalayıb. O, yalnız insan itkilərinə görə ölkəsinin təqribən 7 milyard dollar ziyana düşdüyünü yazıb. Təxminən 4500 ölən və itkin düşmüş hərbi qulluqçu, təxminən 5000 birinci qrup əlil, təxminən 6000 ikinci qrup əlil, təxminən 2000 nəfər fiziki cəhətdən sağlam görünən, lakin cəmiyyətin onsuz da əlil üzvləri olduğunu və Avropa Şurasına görə ortalama bir insanın həyatının iqtisadi ekvivalentinin dövlət üçün 3,1 milyon avro dəyərini nəzərə alaraq, qeyd rəqəmi sübut etməyə çalışıb. Mesrop işğalçı ölkənin müdafiə sisteminə dəyən ziyanı da diqqətə çatdırıb və bunun 2 milyard dollar həddində olduğunu iddia edib. O, təkcə Sotk mədəninin itkisindən dəyən ziyanı 8 milyard dollar hesablayıb. Yalnız itirilmiş hidroelektrik stansiyalarının dəyərini təxminən 600 milyon dollar həddində nəzərə alan Manukyan bu sahədə ziyanın ölkəsi üçün daha çox olduğunu bildirib. Manukyana görə, rəsmi statistikaya əsasən, Dağlıq Qarabağda hər il 150 min tonadək taxıl və dənli bitkilər yetişdirilirdi və bu, yalnız 150 min ton taxıl itkisi deyil, həm də ölkəsinin ərzaq təhlükəsizliyinin bir hissəsi kimi böyük itkidir. Onun sözlərinə görə, ilkin hesablamalara əsasən, təqribən 95 min hektar əkin sahəsi Azərbaycan tərəfinə keçib və nəzərə alsaq ki, ölkəsinin tütün istehsalının 30% -i Dağlıq Qarabağ ərazilərində istehsal olunurdu, Qarabağdan ən yüksək keyfiyyətli meyvə və tərəvəz tədarük olunurdu, itirilən ərazilərdə kənd təsərrüfatı sektoru hər il təxminən 300 milyon dollarlıq meyvə və tərəvəz istehsal edirdi, bu ərazilər hesabına Ermənistanda ət məhsullarına olan tələbatın böyük bir hissəsi təmin edilirdi və bütün bunların itkisi təqribən 3 milyard dollar ziyan olduğunu təsdiqləyir.

O, həmçinin qeyd edib ki, Hərbi Sığorta Fondunun ("AMD 1000") təqribən 1 milyard 200 milyon dollar borcu var, yəni potensial vergi ödəyən Ermənistan Respublikası vətəndaşları bu məbləği ödəməlidirlər. Şura üzvü Bank sistemindəki zərərləri təxminən 1 milyard dollar, Qarabağ ərazilərindəki 15 yatağın 10-nun itkisi nəticəsində olan ziyanı təxminən 3 milyard dollar, infrastruktura dəyən ziyanı təxminən 2 milyard dollar, əhaliyə minimum mənəvi ziyan 3 milyard dollar, meşələr, torpaq, su və mənzil olmaqla ərazi itirilməsi ilə əlaqədar ziyanın ən azı 7 milyard dollar həddində dəyərləndirib.

Görünür, Ermənistanın müharibə cinayətləri nəticəsində vurduğu ziyana görə Azərbaycana ən azı 50 milyard dollar həddində təzminat ödəyəcəyi barədə öhdəliyi Ermənistanın "Hərbi Sığorta Fondu" Qəyyumlar Şurasının üzvü Mesrop Manukyanın yadına heç düşməyib. Əks halda şura üzvü bu rəqəmi də ölkəsinin düşdüyü ziyanın üzərinə əlavə edərdi. Amma Mesrop Manukyan bu rəqəmi əlavə etməsə də, bu, bir reallıqdır və heş şübhəsiz ki, iqtisadiyyatı sıfır səviyyəsində olan bir ölkə üçün belə bir ziyan bu ölkənin məhvolma astanasında olduğunu isbatlayır.

***İnam Hacıyev***

# Tigran Abrahamyan: "Ermənistan yox, Azərbaycanla Rusiya istədiyini aldı"

***"Azərbaycan və Rusiya Moskva görüşündən istədiklərini aldılar, ancaq Ermənistanın məsələləri həll olunmadı". SİA xəbər verir ki, bu sözləri "Anaket" analitik mərkəzin təsisçisi və rəhbəri Tiqran Abramyan öz Facebook səhifəsində yazıb.***



Analitik mərkəzin təsisçisi qeyd edib ki, Ermənistanın baş naziri iki məsələnin, yəni Dağlıq Qarabağın statusu və məhbus mübadiləsi məsələlərinin həll olunmadığını yalnız xatırlada bildi. O, öz sosial şəbəkə hesabında öz statusunu əsasən, dünən, 11 yanvar tarixində Kremldə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında aparılan üçtərəfli danışıqlara həsr edib və fikirlərini paylaşıb.

"Azərbaycan və Rusiya bu görüşdən istədiklərini aldılar, məqsədlərinə nail oldular. Güman edirəm ki, bütün bunlar ciddi şəkildə müzakirə olunmadılar. Üç ölkə liderinin - Paşinyan, Putin və Əliyevin görüşündən və bundan sonra mətbuata verdiyi açıqlamalardan aydın oldu ki, müzakirə regional iqtisadi münasibətlərin normallaşdırılmasına, kommunikasiyaların, infrastrukturların, beynəlxalq trafikin açılmasına həsr olunub və yalnız regional təhlükəsizlik və mexanizmlər barədə ümumi formulalar üzərində qurulub. Bu görüşdən əvvəl Nikol Paşinyan hərbi əsirlərin və ölənlərin cəsədlərinin geri qaytarılması məsələsini bir şərt olaraq irəli sürəcəyini, hətta, yalnız bu məsələlərin həllindən sonra komunikasiyalara yer veriləcəyini söz verdiyi halda, heç də buna nail ola bilmədi, deməli, Ermənistanın məsələsi həll olunmadı", deyə Tiqran Abramyan qeyd edib.

# "Kommersant": Moskvada Paşinyanın öhdəsindən gəlmək çətin olmadı

***"Nikol Paşinyan danışıqlar başlamazdan əvvəl imzalamaq niyyətində olmadığı bəyanatı imzaladı"***



Rusiya Azərbaycan və Ermənistanın rəhbərlərinin 11 yanvarda Moskvada keçirilən görüşü ilə bağlı "Kommersant" qəzetində maraqlı analitik yazı dərc olunub. Yazını təqdim edirik.

Təxminən saat 11 radələrində Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Moskvaya gəldilər. Ermənistan Baş naziri və Azərbaycan Prezidenti Kremldə Rusiya prezidenti ilə əl sıxışdılar, ancaq bir-birlərini silkələmədilər (bu, həqiqətən, tamamilə artıq olardı). İlham Əliyevin Vladimir Putinə yaxınlaşarkən əl sıxmağa hazırlaşmışdı, ancaq Vladimir Putinin ona tərəf əyildiyini görəndə həvəslə cavab verdi və Rusiya prezidentini qucaqladı. Eyni şey bir az sonra ofisə daxil olan Ermənistanın baş naziri ilə də baş verdi.

Eyni zamanda, Azərbaycan Prezidenti Ermənistan Baş naziri kabinetdə dəyilmiş kimi davranmadı və alicənablıq göstərərək onu başını tərpətməklə salamladı. Cavabında Nikol Paşinyan da nümayişkaranə olmasa da, eyni qaydada salam verdi.

Oturduqları anda (təhlükəsiz bir məsafədə, lakin sosial məsafə çətin ki, burada əsas məsələ olaydı), cənab Paşinyana portfelini gətirdilər və o Vladimir Putin danışmağa başlamazdan əvvəl, demək olar ki, qızdırmalı bir şəkildə bəzi sənədləri çıxartmağa başladı. Bilmədən ki, Rusiya Prezidentinin salamlama nitqindən dərhal sonra artıq qapalı olduğu qonşu otağa keçəcəklər və sənədlərin yenidən portfeldə toplanması lazım olacaq.

İlham Əliyevin heç bir kağıza ehtiyacı yox idi: hər zamanki kimi başında hər şey hazır idi. Həqiqətənmi Qarabağın azad olunmuş bölgələrinin adlarını xatırlamaq çətin idi? Və məlum səbəblərə görə onun üçün heç bir şey bundan daha əhəmiyyətli ola bilməz. Onun üçün aparılan danışıqların məqsədi qələbəsini daha əsaslı təmin etmək idi.

Nikol Paşinyanın məqsədi nə idi, yalnız o deyə bilərdi. Səfərdən əvvəl Ermənistandakı tərəfdarlarına və müxaliflərinə, "erməni aslanlarını Azərbaycan əsirliyindən qurtarmaq lazım olduğunu və bunun üçün istənilən şəxslə görüşməyə hazır olduğunu" söylədi.

Eyni zamanda, bir çoxları bu sözləri "istənilən şəxslə" görüşə haqq qazandırmaq üçün zəif bir cəhd kimi qəbul etdilər, dedilər ki, Nikol Paşinyan sadəcə Vladimir Putini rədd edə bilmir.

Vladimir Putin noyabrda Moskvada keçirilmiş həlledici danışıqlara toxunaraq bildirdi: "Daim təmasda idik, birlikdə kompromis axtarırdıq. Xatırladığınız kimi, noyabrın 9-da gecə telefon danışıqları da daxil olmaqla, intensiv bir şəkildə həyata keçirdiyimiz səylər nəticəsində sizinlə imzaladığımız üçtərəfli bir bəyanat qəbul edildi. Bu əsas sənəd, bildiyiniz kimi, ilk növbədə hərbi əməliyyatların tamamilə dayandırılması, rus sülhməramlılarının bölgəyə göndərilməsi və xüsusən də toqquşmalardan təsirlənən mülki əhalinin normal həyat vəziyyətinə qayıtması üçün hərtərəfli və təsirli yardım göstərilməsindən bəhs edir".

Rusiya prezidenti bu qəti danışıqlarda özünün nəyi rəhbər tutduğunu izah etdi: "Bu gün üçtərəfli razılaşmaların ardıcıl olaraq həyata keçirildiyini məmnuniyyətlə deyə bilərik. Əminik ki, bu, həm erməni, həm də Azərbaycan xalqının mənafeyi naminə uzun illərdən bəri davam edən münaqişənin ədalətli əsaslarla uzunmüddətli və geniş miqyaslı həlli üçün lazımi ilkin şərtlər yaradır".

Buradakı əsas ifadə "ədalətli əsas" idi. Yəni, öz ədalət ideyalarını rəhbər tuturdu: 30 il əvvəl başqasının ələ keçirilənin geri verilməsi və bir daha başqasının nəyinisə götürməməli ki, 30 ildən sonra qaytarmalı olmayasan.

"Ermənistan və Azərbaycan tərəflərinin istəyi ilə Dağlıq Qarabağdakı təmas xəttində və Laçın dəhlizi boyunca atəşkəsə riayət olunmasını izləmək üçün Rusiya sülhməramlı kontingenti yerləşdirildi" - deyə cənab Putin sözlərini davam etdirdi: "Atəşkəsin effektiv şəkildə tətbiq edilməsi üçün bir sistem yaradıldı. Rus sülhməramlılarının məsuliyyət zonasında 23 müşahidə məntəqəsi var. Dörd əlavə post koridor boyunca hərəkət təhlükəsizliyindən məsuldur. İndi bölgədə vəziyyət sakitdir. Məcburi köçkünlərin və qaçqınların təhlükəsiz qayıtması üçün çox şey edirik. 14 noyabrdan bəri artıq 48 mindən çox insan Qarabağa qayıtdı. Rusiyanın vasitəçiliyi ilə məhkumların və ölülərin cəsədlərinin mübadiləsi həyata keçirildi.

Sonuncu məsələ Rusiya tərəfinin fikrincə mübadilənin başa çatdırılması məqsədilə müzakirə edilə bilər.

Əslində, hələ də kifayət qədər hərbi əsir var və Nikol Paşinyan, təxminən 4 saat davam edəcək danışıqlar zamanı yeni mübadilə edilməsində israr edəcək.

"Düşünürəm ki, bu gün, ilk növbədə, ötən il 9 noyabr tarixli birgə bəyanatda göstərilən nizamlanmanın əsas sahələrində növbəti addımları müəyyənləşdirmək vacib olardı. Rusiya sülhməramlı kontingentinin fəaliyyəti, sərhəd xətlərinin dəqiqləşdirilməsi, humanitar problemlərin həlli, mədəni irs sahələrinin qorunması ilə bağlı məsələləri nəzərdə tuturam"- deyən Putin gündəmi təsdiqləyərək hərbi əsir mübadiləsi barədə bir şey demədi.

4 saat davam edən qapalı danışıqlardan sonra 3 iştirakçı çıxdı ... Mətbuata yazmaq istədim, amma orada mətbuat yox idi. Yəni, mikrofonlara getdilər. Və maraqlı idi. Axı, "Kommersant"ın verdiyi məlumata görə, erməni tərəfi danışıqlar başlamazdan əvvəl hər hansı bir bəyanat verməkdən və sənədləri imzalamaqdan qəti şəkildə imtina etmişdi. İndi sənəd, məlum olduğu kimi imzalanacaq. Bu, Moskvada Nikol Paşinyanın öhdəsindən gəlməyin o qədər də çətin olmadığını göstərirdi.

İndi isə üçü də mikrofonların yanında dayandılar, artıq heç bir məsafə saxlamadılar və əvvəlcə cənab Putin danışdı. Paşinyan isə öz çıxışına hazırlaşdı və, görünür, əsəbi olaraq, özünü hər iki tərəfdən və ciblərindən fəal şəkildə sığalladı.

Putin dedi: "Əvvəla, həmkarlarıma - həm Azərbaycan Prezidentinə, həm də Ermənistanın Baş nazirinə - bu gün Moskvaya gəlməyi, keçən il 9 noyabr tarixli sülh müqaviləmizin şərtlərinin icrası ilə bağlı məsələləri müzakirə etmək üçün görüşməyi qəbul etdikləri üçün təşəkkür edirəm. Bugünkü görüşü son dərəcə vacib və faydalı hesab edirəm, çünki razılığa gələ bildik və bölgədəki vəziyyətin inkişafına dair ortaq bir bəyanat imzaladıq. Hətta Putin üçün belə bu razılaşmanın imzalanacağı dəqiq aydın deyildi.

"İqtisadi əlaqələrin qurulması, infrastruktur layihələrinin inkişaf etdirilməsi üçün konkret addımlar nəzərdə tuturam"- o dedi. Və əlavə etdi: "Bu məqsədlə 3 hökumətin - Azərbaycan, Ermənistan və Rusiya baş nazir müavinlərinin rəhbərlik etdiyi bir işçi qrupu yaradılacaq. Yaxın gələcəkdə onlar işləyən mütəxəssis alt qrupları yaradacaq, nəqliyyat infrastrukturunun və bölgə iqtisadiyyatının inkişafı üçün konkret planlar təqdim edəcəklər".

İlham Əliyevin çıxışı sülhsevər idi. Ermənilərin qüruru üçün təhqiramiz olan mənalı eyhamları ehtiva edə bilərdi, lakin bunların olmadığını düşünün. "Bu gün imzalanan bəyanat niyyətimizdən bəhs edir" - deyən İlham Əliyev hesab edir ki, hərbi əməliyyatların dayandırılmasına dair bəyanatın müddəalarından biri nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması idi. Onun üçün bu açıqlamada nəqliyyat kommunikasiyası mövzusu əsas idi.

Və yalnız bir dəfə İlham Əliyev loyallıq prinsipinə müqavimət göstərə bilmədi: "Bütün bunlar Vladimir Vladimiroviçin bir vaxtlar dediyi kimi, Dağlıq Qarabağ münaqişəsinin keçmişdə qaldığına inam aşılayır ...".

Bu sözlərdən sonra Nikol Paşinyan hətta geri döndü və gözlərini aşağı saldı. Bu fikri bəyənmədi. Bütün bunların özünün də daxil olduğu keçmişdə qaldığına inanmırdı. Və Ermənistanın Baş naziri danışmağa başlamazdan əvvəl dərindən və ağır bir ah çəkdi.

- ...Təəssüf ki, bu münaqişə hələ həll olunmayıb... Əlbəttə qalır... hmm... Atəşkəsin təmin edilməsini bacardıq... - Ermənistan baş naziri tərəddüd edirdi.. - Hələ həll edilməli olan bir çox məsələ var. Bu məsələlərdən biri statusdur, amma... Dağlıq Qarabağın statusu məsələsi...

İlham Əliyev üçün belə bir məsələ yoxdur. Və Nikol Paşinyan hıçqıltı ilə və çətinliklə ifadələr seçərək onun və ölkəsi üçün heç bir şeyin bitmədiyini, sadəcə atəş etməyi vaxtında dayandırdığını söyləmək istədi. Ancaq bunlar daxili auditoriya, yəni Ermənistan üçün olan sözlər idi. Əslində, bu gün onu istədikləri bütün məqamlara yenidən inandırdılar. Azərbaycanla Ermənistan arasındakı 2-ci müharibə Cənubi Qafqazda mövcud "status-kvo"nu dəyişdirdi.

"Və biz əlbətdə ki ... Ermənistan danışıqları - xüsusən də bu məsələ ilə bağlı - ATƏT-in Minsk Qrupunun həmsədrliyi çərçivəsində davam etdirməyə hazırdır"- deyən baş nazir əlavə etdi: "Təəssüf ki, bu gün biz əsirlərlə bağlı məsələni həll edə bilmədik və bu ən həssas və ağrılı məsələdir. Çünki bu humanitar bir məsələdir və bu istiqamətdə çalışmağa davam edəcəyimizə (nəhayət ki, İlham Əliyev tərəfə baxaraq - A.K.) razılaşdıq. Xüsusilə, birgə bəyanatımızın 8-ci bəndi, təəssüf ki, tam yerinə yetirilməyib (bu, əsir və cəsədləri mübadiləsi bəndidir - AK). Ümid edirəm ki, ən qısa müddətdə konkret bir qərara gələ biləcəyik. Ancaq deməliyəm ki, bu gün imzaladığımız bəyanat həqiqətən çox vacibdir və bu bəyanatdakı razılaşmaların həyata keçirilməsinin bölgəmizin iqtisadi imicini və görünüşünü sadəcə dəyişdirə biləcəyini gizlətməyəcəyəm (hər biri çıxışında "bölgəmiz" dedi, amma yenə də ümumi region nəzərdə tuturlar, Qarabağı deyil - A.K.) iqtisadi yeniliklər daha etibarlı təhlükəsizlik zəmanətlərinə də səbəb ola bilər və əlbəttə ki, bu istiqamətdə konstruktiv işləməyə hazırıq, amma dediyim kimi, bu görüşün müddəti ərzində bütün məsələləri həll etmək mümkün deyildi. Ümid edirəm ki, irəliləməyə davam edəcəyik, bir daha vurğulamaq istəyirəm ki, bizim üçün də hazırda əsas məsələ humanitar məsələlər, 9 və ya 10 noyabr tarixli birgə bəyanatımızın 8-ci bəndi üzrə də (Moskva və Bakı-Yerevan vaxtı bu vəziyyətdə bir gün fərqlənir - A. K.).

Bunu söyləyərək həmyerlilərinin gözündə və özünükülərdə hərbi əsirlər uğrunda vuruşan Nikol Paşinyan hava limanına yollandı, İlham Əliyev isə Kremldə qaldı.

Sonra isə İlham Əliyev Vladimir Putinlə təkbətək görüşdü (bu, "Kommersant"ın verdiyi məlumata görə əvvəlcədən razılaşdırılmışdı). Azərbaycan Prezidentinin tələsəcək yeri yox idi. Görünür, yenə də qələbəsindən zövq almaq üçün hər bahanədən istifadə edir.

İlham Əliyev imzalanmış bəyanatın təfərrüatlarını dedi: "Bəyanat bölgəmizdə tamamilə yeni bir vəziyyətin yaradılması, nəqliyyat kommunikasiyalarının blokunun açılması məqsədi daşıyır. Bunun bizim üçün böyük əhəmiyyəti var, çünki bu yolla, 30 ildən çox bir müddətdən sonra Azərbaycan, Ermənistan ərazisindən keçən nəqliyyat kommunikasiyaları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə əlaqə quracaqdır. Ermənistanın Azərbaycan ərazisi ilə Rusiya və İranla dəmir yolu əlaqəsi olacaqdır. Naxçıvan Muxtar Respublikası üzərindən də Türkiyə bazarına çıxış əldə edəcəyik. Həm də Türkiyə və Rusiya dəmir yolu arteriyaları bağlanacaq. Yəni bu açıqlama böyük perspektivlər açır!

Yəni İlham Əliyev və Vladimir Putin açıq şəkildə bu açıqlama ilə əvvəlki 9 noyabr tarixli razılaşmanı möhkəmləndirdiklərinə inanırlar.

Ondan sonra müharibədən danışmaq üçün vaxt olmamalıdır elə müharibənin özündən əvvəldən də. 30 il əvvəl mövcud olan nəqliyyat arteriyalarının açılmasından və yenilərinin tikilməsindən faydalanmaq üçün vaxt qazanmaq daha faydalı olacaq. "Və Ermənistanla Azərbaycan arasında yaranan və illər ərzində formalaşan vəziyyət nəhayət həll olundu və əminəm ki, hər iki xalq da gələcək və barışıq haqqında düşünmək üçün özündə müdriklik və iradə tapacaq və erməni tərəfin də 9 noyabr bəyanatına yenidən baxmaq cəhdləri olmayacaq",- İlham Əliyev dedi. Yəni, bununla daha bir dəfə də öz qalibiyyətini nümayiş etdirməkdən özünü saxlaya bilmədi...

Müəllif: Andrey Kolesnikov

***Tərcümə: Elçin Bayramlı***


**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

SƏS
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
13 yanvar

QARABAĞ AZƏRBAYCANDIR!

# Corc Buşun bacısı qocalar evində öldü

**ABŞ-ın 41-ci prezidenti Corc Buşun bacısı Nensi Buş Ellis Konkord şəhərində yaşadığı qocalar evində koronavirus səbəbindən 94 yaşında vəfat edib. Bu barədə “New York Times” qəzetinə onun oğlu III Aleksandr Ellis bildirib.**



Nensi dekabrın 30-da yüksək hərarətlə xəstəxanaya yerləşdirilib. Müayinə zamanı koronavirus testinin cavabı müsbət olmuşdu. Müalicəsi uğurla həyata keçirilsə də sonradan ümumi sağlamlığı pisləşib. Qeyd edək ki, 1926-cı il fevralın 4-də doğulan Nensi Buş ailədə 4 qardaşın bir bacısı idi.

# Amerikalı xizəkçi dünya kubokunda tarixi nəticə qazanıb

Xizəkçilərin dünya kubokunun “Tur de Ski” mərhələsində qadınların yarışında tarixi nəticə qeydə alınıb. Norveç idmançılarının yoxluğunda ilk dəfə qeyri-avropalı atlet turniri qalib kimi başa vurub. AZƏRTAC xəbər verir ki, 15-ci dəfə təşkil olunan turnirdə amerikalı Cessi Diggins bu titula yiyələnib. O, sonuncu mərhələdə 10 kilometrlik məsafə üzrə keçirilən yarışı ikinci sırada tamamlasa da, bu, ali mükafata yiyələnmək üçün kifayət edib. İsveçli Ebba Anderson əksinə, sonuncu mərhələdə qələbə qazansa da, ümumi siyahıda yalnız üçüncü yeri tutub. Rusiyalı Yuliya Stupak isə “Tur de Ski” turnirini ikinci sırada tamamlayıb. Digginsin tarixi uğur qazanmasında pandemiyaya görə İtaliyaya səfər etməyən norveçli xizəkçilərin yoxluğu da böyük rol oynayıb. Çünki qadınların analoji yarışlarında Norveç idmançılarının fəxri mükafata yiyələnməsi adət halını almışdı.




# Keçmiş məhkumdan “Kalaşnikov” tapıldı

**Polis əməkdaşları tərəfindən qanunsuz olaraq üzərlərində və yaşayış sahələrində odlu silah-sursat saxlayan şəxslərə qarşı əməliyyatlar davam etdirilir.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Nəsimi Rayon Polis İdarəsinin 19-cu Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində üzərində qanunsuz olaraq odlu silah gəzdirməkdə şübhəli bilinən, əvvəllər məhkum edilmiş vətəndaş Raqil Bayramov saxlanılıb. Polis Şöbəsində onun əlindəki idman çantasına baxış zamanı 1 ədəd “Kalaşnikov” konstruksiyalı avtomat silah, 19 ədəd patron və daraq aşkar edilərək götürülüb.



Raqil Bayramov barəsində 19-cu Polis Şöbəsində toplanan materiallar cinayət işinin başlanılması üçün Nəsimi Rayon Polis İdarəsinə göndərilib. Saxlanılan şəxsin ətrafında əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Dünyanın ən zənginləri açıqlandı

“SpaceX” və “Tesla” şirkətlərinin rəhbəri İlon Mask bir gün ərzində 13,5 milyard dollar itirərək dünyanın ən zəngin şəxsləri sırasında ikinci pilləyə düşüb. SİA-nın məlumatına görə, bu barədə “Forbes” jurnalının reytinqində deyilir. Hazırda İ.Maskın sərvəti 176,2 milyard dollar təşkil edir. Birinci yerə “Amazon” şirkətinin təsisçisi Ceff Bezos (182,1 milyard dollar) qayıdıb. Reytinqdə üçüncü yerdə “Louis Vuitton Moet Hennessy” şirkətinin prezidenti Bernar Arno 154,6 milyard sərvətlə yer alıb.

İlk beşliyi 121,4 milyard dollar sərvətlə “Microsoft”un təsisçisi Bill Geyts və 94 milyard sərvətlə “Facebook”un təsisçisi və rəhbəri Mark Zukerberq tamamlayır. Xatırladaq ki, İlon Mask bir neçə gün əvvəl milyarderlər reytinqində birinci pilləyə yüksəlmişdi.




# Azərbaycanda yeni arı növü aşkarlandı

Naxçıvan faunasında dünya elmi üçün yeni arı növü aşkarlanıb. AMEA-dan bildirilib ki, Rusiya Elmlər Akademiyası Uzaq Şərq Bölməsi Biomüxtəliflik Elmi Mərkəzinin əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru Maksim Yuryeviç Proşalıki və azərbaycanlı alimlərlə birlikdə çoxsaylı elmi ekspedisiyalar nəticəsində Naxçıvanın Darıdağ və Sirab ərazisindən yeni arı növü - Hoplisoides flavescens (Sarımtıl hoplisoides) dünya elmi üçün ilk dəfə qeyd edilib.



Qazıcı arı cinsi olan Hoplisoides Avstraliya istisna olmaqla dünyanın bütün zoocoğrafi vilayətlərində yayılıb. Cinsin Palearktikada 10, Oriental regionda 10, Afrotropikal regionda 17, Neotropikal regionda 28, Nearktikada 9, Neotropikal-Nearktikada 8 növü olmaqla, dünyada cəmi 82 növü yayılıb. Adıçəkilən arı cinsinin növləri torpaqda, xüsusilə çılpaq, qumlu torpaqda çoxhücrəli yuvalar qurur. Faydalı arı növləri kimi əsasən yarpaqyeyən böcəklərin sürfələrini ovlayıb, onların sayının bioloji tənzimlənməsində əhəmiyyətli rol oynayırlar.

Sarımtıl hoplisoides bütün Palearktik növlərdən mezosomanın qarın hissəsində sarı rəngin və əsasən sarı mezosomal sternanın olması ilə fərqlənir.

# Evdən qızıl oğurlayan qadın yaxalanıb

**Binəqədi rayonunda oğurluqla məşğul olan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 10-da Binəqədi rayonu ərazisindəki evlərin birindən 9 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Ş.İbişova rayon polis idarəsinin 5-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı təhqiqat davam etdirilir.**



# Gəncədə ev yandı

Gəncə şəhərinin Kəpəz rayonunda ümumi sahəsi 127 m? olan birmərtəbəli evin yanar konstruksiyaları yanıb. SİA-nın Fövqəladə Hallar Nazirliyinin rəsmi saytına istinadən verdiyi xəbərə görə, yaxınlıqdakı evlər yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.



**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600